RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 20 (8336) CÜMƏ, 31 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən əlverişli investisiya məkanlarından birinə çevirməkdədir

Cənubi Qafqazın iqtisadi mərkəzinə çevrilən Azərbaycanın coğrafi mövqeyi, böyük tranzit potensialı, nəhəng regional layihələri və əlverişli biznes mühiti ölkəmizə xarici investisiyaların cəlb olunmasına töhfə verir. Müstəqillik illərindən bugünədək Azərbaycana yatırılmış investisiyaların həcminə nəzər yetirsək görərik ki, iqtisadiyyata qoyulan 270 milyad dollarlıq investisiyanın yarısı xarici sərmayələrdir. Bu, əlbəttə ki, xarici investorların Azərbaycana olan inamının göstəricisidir.

### 5 ilə 64 milyard dollar investisiya artımı

Prezident İlham Əliyevin həyata keçirdiyi sistem xarakterli iqtisadi islahatlar və qlobal iqtisadi çağırışlara uyğun olaraq hazırlanmış strateji yol xəritələrinin icrası ilə Azərbaycan dünyanın ən əlverişli investisiya məkanlarından birinə çevrilməkdədir. Bunu söyləməyə əsaslar mövcuddur. Təkcə hər ötən il ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcminin yüksəlməsi bu reallığı əks etdirir.

Ölkədəki sabitlik, xarici investorlara yaradılan əlverişli şərait iş adamlarının diqqətini daim cəlb edir. Bu səbəbdəndir ki, xaricdən ölkəyə investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır.

Son 16 ildə cənab İlham Əliyevin əsas hədəflərindən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək olub. Bu səbəbdən də ölkədə iqtisadi müstəqillik əsas prioritet olub və siyasi müstəqillik üçün bünövrə rolunu oynayıb.

Əgər müstəqillik dövründən 2015-ci ilədək ölkə iqtisadiyyatına 206 milyard dollar həcmində investisiya cəlb olunmuşdusa, 2019-cu ildə bu rəqəm 270 milyad dollar həcminə yüksəlib. Yəni 5 ilə 64 milyard manatlıq investisiya artımı qeydə alınıb.

Bu dövr ərzində ölkəmizdə ümumdaxili məhsul 3.3 dəfə artıb, ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 51 milyard dollara çatıb. Təkcə ötən il Azərbaycanın iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17,184,3 milyon manat vəsait yönəldilib.

### Əlverişli investisiya mühiti, investorlar üçün etibarlı tərəfdaş

Möhtəşəm inkişaf və islahatlar mərhələsini yaşamaqda olan Azərbaycan investorlar üçün etibarlı tərəfdaşdır. Həm xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, həm də bu məqsədlə əlverişli mühitin yaradılması Azərbaycan dövlətinin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Azərbaycanın xarici investisiya üçün cəlbedici olması təsadüfi deyil. Çünki respublikamızda əcnəbi investorların səmərəli fəaliyyəti məqsədilə hər cür şərait, xüsusilə mükəmməl qanunvericilik bazası yaradılıb, “açıq qapı” siyasəti prioritet istiqamət kimi qəbul edilib. Bundan başqa, son illərdə Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı 50-dən çox saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb.

### Prezidentin Davos səfəri Azərbaycana siyasi və iqtisadi dividendlər qazandırdı

Azərbaycan bu gün qlobal enerji bazarının mühüm aktorlarından birinə çevrilib. Cənab İlham Əliyev isə qlobal iqtisadi vəziyyətə təsir edən amilləri dərindən təhlil edir və daha rəqabətli iqtisadiyyatın formalaşması üçün ideyalar verir. Yanvarın 21-24-də Davosda keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə, iştirak etdiyi iclaslarda səsləndirdiyi təkliflər də Azərbaycana böyük siyasi və iqtisadi dividendlər qazandırdı.

Ardı 5-ci səh.

## Parlament seçkiləri Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunulub, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulanıb, bu proseslər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dəyərləndirilib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçirib.

## Azərbaycan və Fransa prezidentləri ikitərəfli münasibətlərin inkişafından məmnundurlar

Fransa Respublikasının Prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, hər iki tərəf əlaqələrin inkişafından məmnun olduqlarını bildirib, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi vurğulanıb.

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə ediblər. Prezident İlham Əliyev münaqişənin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bir daha Fransa Prezidentinə çatdırıb.

Telefon danışığı zamanı həmçinin regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***






### Autizmdən əziyyət çəkənlər daim Birinci vitse-prezidentin şəxsi nəzarəti altındadırlar

*Bir başqadırlar onlar... Bir az fərqli... Bir az qəribə... Bir az özünəməxsus...*
*Göz təmasından qaçırlar... Həyata öz baxışları var, görə bilmədiklərimizi görürlər bəlkə də...*
*Bəzən aqressivdirlər, ünsiyyət qurmurlar, danışmırlar... Öz dilləri var, bəlkə də anlaya, danışa bilmədiyimiz bir dil...*
*Bəzən də çox istedadlıdırlar, bacarıqlıdırlar, qeyri-adi qabiliyyətə malikdirlər... Bizim edə bilmədiklərimizi edirlər...*
*Öz dünyaları var onların. Bəzən kənar adamları sığdıra bilmədikləri, çərçivələrini özləri müəyyənləşdirdikləri dünya...*
*Amma xəstə deyillər... Autizmlidirlər...*

Ardı 5-ci səh.

9 fevral Milli Məclisə seçkilər günüdür

## Seçki hazırlığı davam edir

### 33 saylı Xətai birinci seçki dairəsində müşahidələrimiz göstərdi ki, seçkilərin demokratik və şəffaf keçirilməsi tam təmin olunacaq

Vətəndaşların cəmiyyətin siyasi-ictimai həyatında iştirakının ən kütləvi forması seçkilərdir. Dövlətin idarə edilməsində vətəndaşların iştirak hüquqları əsas etibarilə seçki vasitəsilə reallaşır. Seçkilərin əsas şərti isə ədalət, aşkarlıq, şəffaflıq və obyektivlikdir. Demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini bəyan etmiş Azərbaycan xalqı da hakimiyyətin formalaşdırılmasının yeganə yolunu məhz demokratik seçkilərdə görür.




Hazırda respublikamız növbəti mühüm siyasi kampaniyaya start verib. Fevralın 9-da Milli Məclisə seçkilər keçiriləcək. Seçkilərin yüksək səviyyədə, ölkənin seçki qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə baş tutması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən nəzərdə tutulan hazırlıq işlərinin böyük qismi artıq yekunlaşıb. Seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb, səsvermə məntəqələri lazımi avadanlıqlarla təchiz olunaraq tam hazır vəziyyətə gətirilib, xarici və yerli müşahidəçilərin seçkini izləmələri üçün bütün lazımi şərait yaradılıb. Hazırda qeydə alınmış namizədlər təbliğat və təşviqatla məşğuldurlar.

33 saylı Xətai birinci seçki dairəsində həm dairə seçki komissiyasında, həm də məntəqə seçki komissiyalarında gördüklərimiz hazırlıq işlərinin, bütövlükdə seçki prosesinin Mərkəzi Seçki Komissiyasının Təqvim Planına uyğun davam etdiyini təsdiq edir.

Ardı 4-cü səh.

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi açılıb

Heydər Əliyev Fondu, Azərbaycanın Fransadakı səfirliyi və UNESKO yanında daimi nümayəndəliyin birgə təşkilatçılığı ilə Parisdə UNESKO-nun baş qərargahında fondun “Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər” adlı sərgisinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, UNESKO baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Erneste Ottone Ramirez, Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, UNESKO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov, Fransada akkreditə olunmuş səfirlər, UNESKO-dakı missiyaların rəhbərləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.



Ardı 3-cü səh.

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikasısı Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Məmməd oğlu Mehdiyevə gömrük xidməti general-polkovniki ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına gömrük xidməti general-leytenantı ali xüsusi rütbəsi verilsin:

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini İsmayıl Xəlil oğlu Hüseynova

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səhət İsa oğlu Həbibbəyliyə.

3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına gömrük xidməti general-mayoru ali xüsusi rütbəsi verilsin:

Aksizli Mallar üzrə Baş Gömrük İdarəsinin rəisi Həsən Nəbi oğlu Eyubova

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Bəhruz Faiq oğlu Quliyevə.

4. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Yusuf oğlu Məmmədova tibb xidməti general-mayoru ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 17 aprel tarixli 388 nömrəli, "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın təsdiqi haqqında" 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 410 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 768 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 388 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 320; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 7, maddə 1222) ilə təsdiq edilmiş "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydaları"na aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

1.3. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə bu Qaydaların 1.1-ci bəndində nəzərdə tutulan sazişlərin bağlanması bu Qaydalara və "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 768 nömrəli Fərmanına uyğun olaraq həyata keçirilir.".

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2100; 2018, № 10, maddə 1991; 2019, № 4, maddə 644) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə xarici borcalma bu Qaydaya və "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 768 nömrəli Fərmanına uyğun olaraq həyata keçirilir.".

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli və 16 dekabr tarixli 878 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.31-1-ci və 3.1.43-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.31-1. xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) reallaşdırılması nəticəsində dəstək almış sahibkarlara dair məlumatların mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinə daxil edilməsini təşkil etmək;";

"3.1.43-1. xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) sahibkarların inkişafına təsiri səviyyəsini öyrənərək, növbəti dövrlərdə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirəcəyi proqramların (layihələrin) istiqamətlərinə dair təkliflərin hazırlanmasını təmin etmək;".

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2567) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"na aşağıdakı məzmunda 1.2-1-ci bənd əlavə edilsin:

"1.2-1. Azərbaycan Respublikası adından mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə borcalma bu Qaydaya və "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 768 nömrəli Fərmanına uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

## "Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 159, № 7, maddə 588, № 9, maddə 790; 2009, № 2, maddə 74; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 2, maddə 295) 1-ci hissəsindən "Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri" sözləri çıxarılsın və həmin hissədə "Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri" sözləri "Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri" sözləri ilə, "direktoru" sözü "sədri" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

## "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1605-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 1346 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 402; 2010, № 2, maddə 80; 2017, № 7, maddələr 1334, 1337; 2019, № 8, maddə 1389) 2.1-2-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

## Goranboy rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Goranboy rayonunun əhalisi 30378 nəfər olan 16 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 1,19 milyon (bir milyon bir yüz doxsan min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

## *Georgi TSERETELİ:* "ATƏT PA Azərbaycan ilə əlaqələrin inkişafına böyük maraq göstərir"



Yanvarın 30-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının (ATƏT PA) sədri Georgi Tsereteli ilə görüşüb.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı səmimi salamlayan Oqtay Əsədov bu səfər çərçivəsində keçiriləcək görüşlər Azərbaycan ilə ATƏT PA arasında münasibətlərin inkişafına dəyərli töhfə verəcəyinə ümid etdiyini bildirib.

Qeyd edilib ki, Georgi Tseretelinin ATƏT PA-ya sədrliyi dövründə müstəqil Azərbaycan ilə bu qurum arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə qalxıb. Qonağın ədalətli mövqeyi, proseslərə obyektiv baxışı sayəsində təşkilatın qurumları ilə əlaqələrimiz normal məcrada inkişaf etməkdədir. Təqdirəlayiq haldır ki, Azərbaycan nümayəndə heyəti tərəfindən qurumda qaldırılmış təşəbbüslər Parlament Assambleyasında dəstəklənib. Azərbaycan gələcəkdə də qurumda fəaliyyətini bu istiqamətdə davam etdirmək niyyətindədir.

Qonağın parlament seçkiləri ərəfəsində ölkəmizə səfər etdiyini vurğulayan sədr Oqtay Əsədov qurum rəhbərliyinin ölkə əhəmiyyətli bu prosesə diqqətini yüksək qiymətləndirib. Bildirib ki, qarşıdakı parlament seçkilərini ATƏT PA-nın xətti ilə 70-dən çox müşahidəçi izləyəcək. Ümumiyyətlə, parlament seçkilərini izləmək üçün 50 mindən artıq müşahidəçi qeydiyyata alınıb. Onlardan 429-u beynəlxalq müşahidəçilərdir.

Spiker deyib ki, Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçki praktikası və qanunvericilik təkmilləşdirilib. O.Əsədov əmin olduğunu bildirib ki, 9 fevral seçkilərində seçicilər öz iradələrini sərbəst şəkildə ifadə edərək bəyəndikləri namizədə səs verəcəklər.

Söhbət zamanı Oqtay Əsədov qonağın təmsil etdiyi təşkilatın bu siyasi prosesə obyektiv qiymət verəcəyinə inandığını bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən ATƏT PA-nın sədri Georgi Tsereteli ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Milli Məclisin rəhbərliyi ilə artıq mütəmadi xarakter halını almış bu təmaslar münasibətlərimizin inkişaf dinamikasının göstəricisidir. "ATƏT PA Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Azərbaycan bizim üçün çox önəmli ölkədir", - deyən Georgi Tsereteli Azərbaycan nümayəndə heyətinin təşkilatın işində fəaliyyətindən razı qaldığını vurğulayıb, gələcəkdə də bu fəaliyyətin yüksək səviyyədə davam etdiriləcəyinə əminliyini bildirib.

Sonra Georgi Tsereteli fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı fikirlərini bölüşüb.

Daha sonra tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Sədrinin müavini, ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri Bahar Muradova və digər rəsmi şəxslər iştirak ediblər.

## ATƏT Parlament Assambleyasının prezidenti Azərbaycana səfərə gəlib



ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli yanvarın 30-da Azərbaycana səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Georgi Tseretelini Milli Məclisin Sədr müavini Bahar Muradova qarşılayıb.

Georgi Tsereteli ATƏT ilə Azərbaycan arasında səmərəli əməkdaşlığın mövcud olduğunu bildirib. O deyib ki, ATƏT fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərinə əhəmiyyət verir və təşkilat olaraq biz də seçkiləri müşahidə edəcəyik.

ATƏT Parlament Assambleyasının prezidenti Azərbaycanda müxtəlif istiqamətlərdə - siyasi, iqtisadi, sosial sahələrdə islahatlar həyata keçirildiyini qeyd edib.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 30-da Naftalan, Qax, Sabirabad, Laçın, Şəmkir şəhər və rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə, Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir.

Keçirilən görüşlərdə həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 yanvar tarixli Sərəncamına Əlavə*

## Goranboy rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1. | Aşağı Ballıqaya kəndi | 1 | 747 |
| 2. | Azad kəndi | 1 | 551 |
| 3. | Balakürd kəndi | 1 | 2030 |
| 4. | Boluslu kəndi | 1 | 1396 |
| 5. | Goranlı kəndi | 1 | 648 |
| 6. | Hazırəhmədli kəndi | 1 | 1150 |
| 7. | Xan Qərvənd kəndi | 1 | 4422 |
| 8. | Qarasuçu kəndi | 1 | 509 |
| 9. | Qazançı kəndi | 1 | 437 |
| 10. | Qızılhacılı kəndi | 2 | 7090 |
| 11. | Muzdurlar kəndi | 1 | 1586 |
| 12. | Nizami kəndi | 1 | 1167 |
| 13. | Səfikürd kəndi | 1 | 4698 |
| 14. | Şahməmmədli kəndi | 1 | 816 |
| 15. | Veyisli kəndi | 1 | 1930 |
| 16. | Yeni yol kəndi | 1 | 1201 |
| **Cəmi** | | **17** | **30378** |

## X.S.Qocayevin (Xeyrəddin Qocanın) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ədəbi və ictimai həyatında fəal iştirakına görə Xeyrəddin Sayəddin oğlu Qocayev (Xeyrəddin Qoca) "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2020-ci il*

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi açılıb






*Əvvəli 1-ci səh.*






Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov sərginin açılışında çıxış edərək "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı layihənin ərsəyə gəlməsindən danışıb. Bildirib ki, 10 il əvvəl Azərbaycan xalça sənəti UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına, Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında isə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu baxımdan Şəki xalçalarının UNESKO-nun baş qərargahında sərgilənməsi böyük əhəmiyyət daşıyır. O, sərginin UNESKO-nun baş qərargahında təşkilinə göstərdiyi dəstəyə görə qurumun baş direktoru Odre Azuleyə təşəkkür edib.

Daha sonra sərginin açılışında UNESKO baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Erneste Ottone Ramirez, Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, UNESKO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov da çıxış ediblər. Çıxışlarda Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Heydər Əliyev Fonduna sərginin təşkilinə görə təşəkkür edilib.

Bildirilib ki, bu sərgi Azərbaycan mədəniyyətini, xalçaçılığını daha yaxından kəşf etməyə imkan yaradır. Xalça toxuculuğu Azərbaycanın kimliyini əks etdirir. Xalça toxuculuğunun nəsildən-nəslə ötürüldüyü diqqətə çatdırılıb. Şəkinin zəngin mədəniyyət irsindən, ipəkçiliyindən, Azərbaycan memarlığının şedevri olan Xan Sarayından danışılıb. Xalça sənətinin Azərbaycan xalqının estetik və dünyagörüşünü, eləcə də plüralist baxışlarını əks etdirdiyi bildirilib. Diqqətə çatdırılıb ki, bu sənət Azərbaycan xalqının həyatının ayrılmaz hissəsidir.

Qeyd edilib ki, mədəniyyət irsinin qorunub saxlanması və nəsildən-nəslə ötürülməsi UNESKO-nun missiyasıdır. Azərbaycanın dövlət nümayəndələrinə qurumun bu missiyasına göstərdiyi dəstəyə görə minnətdarlıq bildirilib.

Tədbirdə sərgilənən xalçaların toxucularından iki nəfəri, eləcə də Kann sərgisindən ruhlanaraq Azərbaycana gəlmiş və xalça toxumağı öyrənmiş Filip Jüj də iştirak ediblər. Filip Jüj "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı layihənin sakini olduğu Kann şəhərində təşkil edilməsindən məmnunluğunu bildirib və elə həmin vaxtdan Azərbaycan xalçalarına heyran olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, xalçalarımıza bu heyranlığı onu həmin sərgini hər gün ziyarət etməyə sövq edib. Dəfələrlə sərgidəki xalçaları seyr etdikdən sonra o, Azərbaycana gələrək xalçaçılar yanında təcrübə keçməsindən, xalça toxumağı öyrənməsindən danışıb. Kanna qayıtdıqdan sonra evində dəzgah qurduğunu və artıq iki xalça toxuduğunu deyib.



Sərginin rəsmi hissəsindən sonra tədbir iştirakçıları nümayiş olunan xalçaları seyr edib və motivlər, rənglərlə bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, Azərbaycan sənətçiləri, rəssamları Şəki Xan Sarayındakı əsrarəngiz ornamentlərdən, freskalardan ruhlanaraq nəfis və zəngin əsərlər yaradıblar. Sərgidə nümayiş olunan xalçalar da məhz həmin ornamentlərin, Şəki motivlərinin əsasında xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin eskizləri üzrə iki il ərzində 30 xalçaçı tərəfindən toxunub.

Sərgi ilk dəfə 2019-cu ildə Heydər Əliyev Fondunun Kann şəhərində keçirdiyi Azərbaycan mədəniyyəti günləri çərçivəsində təqdim edilib və bu il ərzində onun bir çox fransız şəhərlərində nümayişi nəzərdə tutulur.

UNESKO-nun baş qərargahında təşkil olunan sərgi fevralın 4-dək davam edəcək.

# Gömrükçülər peşə bayramlarını qeyd ediblər



Yanvarın 30-da Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 28-ci ildönümü və gömrük əməkdaşlarının peşə bayramı münasibətilə təntənəli mərasim və Dövlət Gömrük Komitəsinin (DGK) 2019-cu il ərzindəki fəaliyyətinin yekunlarına həsr olunan kollegiya iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, gömrük əməkdaşları peşə bayramı münasibətilə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn gömrükçülər ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasını DGK sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səslənib.

Mərasimdə çıxış edən S.Mehdiyev bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan davamlı iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ islahatlar hesabına uğurla reallaşdırılması ölkəmizin iqtisadi qüdrətinin artması, əhalinin rifah halının yaxşılaşması ilə yanaşı, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilməsinə də şərait yaradıb.

Əldə olunan nailiyyətlərdə gömrük xidmətinin də payı olduğunu vurğulayan komitə sədri son illər ölkədə həyata keçirilən islahatlar çərçivəsində gömrük orqanlarının da bir sıra yeniliklər tətbiq etdiyini diqqətə çatdırıb. S.Mehdiyev qeyd edib ki, fiskal, hüquqpozmalara qarşı mübarizə, gömrük nəzarəti, ticarətin asanlaşdırılması və xüsusilə şəffaflığın təmin olunması istiqamətində ciddi nailiyyətlər əldə olunub.

Komitə sədri onu da qeyd edib ki, gömrük sistemində aparılan struktur və kadr islahatları idarəetmənin təkmilləşdirilməsinə, kadrların peşə hazırlığının artırılmasına və ümumiyyətlə, gömrük işinin müasir dünyanın çağırışlarına uyğun şəkildə yenidən qurulmasına münbit şərait yaradıb.

Gələcək hədəflərə toxunan S.Mehdiyev bildirib ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gömrük orqanlarının və onun əməkdaşlarının əsas məqsədi göstərilən etimadı doğrultmaq, dövlətə, dövlətçiliyə sədaqət nümayiş etdirməklə qarşıya qoyulan vəzifələri vicdanla yerinə yetirməkdir.

Sonra kollegiyanın gündəliyindəki məsələlər müzakirə olunub.

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2019-cu ildəki fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr" barədə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov çıxış edib. O bildirib ki, hesabat dövründə ilk növbədə "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, şəffaflığın və vətəndaş məmnuniyyətinin təmin olunması, beynəlxalq ticarətin asanlaşdırılması, qaçaqmalçılığa qarşı mübarizə istiqamətində əldə edilən uğurlu nəticələr sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, dövlət büdcəsi gəlirlərinin, ölkəmizin ixrac və tranzit potensialının artmasına münbit şərait yaradıb. Dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında xüsusi rolu olan Dövlət Gömrük Komitəsi 2019-cu il üzrə nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı 4 milyard 408 milyon 620 min manat gömrük ödənişlərinin toplanmasını təmin edib və proqnoza 119,1 faiz əməl olunub. Ötən ilin fevralından tətbiq edilən "Yaşıl dəhliz" buraxılış sistemi ölkəmizdə sahibkarlığın inkişafına daha da təkan verib. Artıq 530 xarici ticarət iştirakçısı həm idxal, həm də ixracda bu sistemdən istifadə imkanı əldə edib. Ümumilikdə, xarici ticarət həcminin 8 milyard dolları "Yaşıl dəhliz" sistemindən istifadə edən biznes subyektlərinin payına düşür.

Qeyd edilib ki, 2019-cu ildə aparılan islahatlar, gömrük-keçid məntəqələrində quraşdırılan müasir avadanlıqlar və təkmilləşdirilmiş idarəetmə sistemi hesabına sərhədkeçmə prosesləri asanlaşdırılıb, sürətli keçid təmin olunub, sərhədlərdə yerləşən gömrük postlarının buraxılış qabiliyyəti dəfələrlə artıb. Yük və nəqliyyat vasitələri fiziki yoxlamalara deyil, risklərin qiymətləndirilməsi və təhlili əsasında yoxlanışa cəlb olunur. Bu da ticarətin asanlaşdırılması və sərhədkeçmə prosesinin sürətləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Ticarətin Asanlaşdırılması mərkəzləri ən müasir texniki vasitələr, "1 inspektor-1 nəqliyyat vasitəsi", "e-növbə" kimi innovativ layihələr və informasiya texnologiyalarının tətbiqi hesabına sərhədkeçmə proseslərinə sərf olunan müddət 3 dəfəyə qədər azaldılıb. Əvvəllər gömrük-sərhəd buraxılış məntəqələrindən gün ərzində 250 yük nəqliyyatı vasitəsi keçirdisə, hazırda bu rəqəm 600-ə çatdırılıb ki, bu da beynəlxalq ticarətin və tranzit əməliyyatlarının sürətləndirilməsi üçün mühüm amildir.

Komitə sədrinin birinci müavini onu da bildirib ki, gömrük orqanlarının ən vacib fəaliyyət sahələrindən biri qaçaqmalçılığa qarşı mübarizə narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasıdır ki, ötən il 13443 hüquqpozma faktı aşkarlanıb və bunlardan 866-sı cinayət xarakterli faktlar olub. Aşkarlanan cinayət xarakterli faktların əksəriyyəti narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olub. Ötən il 2 tondan çox narkotik vasitə aşkar edilərək dövriyyədən çıxarılıb, qaçaqmalçılıq yolu ilə gətirilərkən aşkarlanan malların ümumi dəyəri isə 300 milyon dollardan çox olub.

Çıxışının sonunda İ.Hüseynov vurğulayıb ki, Azərbaycan gömrükçüləri dövlət başçısının ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması, xalqımızın firavan gələcəyinin təmin edilməsi uğrunda göstərdiyi fəaliyyətdə yaxından iştirak edəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli, Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin rəisi Şahin Ələsgərov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov və Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov çıxış edərək ötən dövr ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat veriblər.

Bundan başqa, iclasda "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2020-ci il üçün İş Planı" təsdiq olunub.

Daha sonra Dövlət Gömrük Komitəsinin xidmətdə fərqlənən bir qrup əməkdaşına Ümumdünya Gömrük Təşkilatının sertifikatları verilib, eləcə də Dövlət Gömrük Komitəsinin xidmətdə fərqlənən bir qrup əməkdaşına fəxri fərman və xüsusi rütbələr verilməsi haqqında komitə sədrinin müvafiq əmrləri diqqətə çatdırılıb.

Tədbirin sonunda yığıncaq iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

# Bakıda Beynəlxalq Türk Akademiyası Elmi Şurasının üçüncü toplantısı keçirilib

Yanvarın 30-da Bakıda Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 3-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyev, Təhsil naziri Ceyhun Bayramov, Qazaxıstan və Qırğızıstanın Təhsil nazirlərinin müavinləri Kanat Sarsembayev və Japarkul Taşiyev, Türkiyə Respublikası Milli Təhsil Nazirliyi Təlim və Təhsil İdarəsinin rəhbəri Burhanettin Dönməz, Türkiyə Respublikası Ali Təhsil Şurasının sədr müavini Mehmet Şişman, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi Bağdad Amreyev, Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, o cümlədən Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan və Özbəkistanın ölkəmizdə akkreditə olunmuş səfir və diplomatları iştirak ediblər.




Təhsil naziri Ceyhun Bayramov açılış nitqi ilə çıxış edərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qısa müddətdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirdiyini və öz fəaliyyətini genişləndirdiyini bildirib. O, Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və bütün türk xalqları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin yüksək səviyyəyə çatdırıldığını vurğulayıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində təhsil və elm sahəsində əməkdaşlığın inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali isə rəhbərlik etdiyi təşkilatın ötənilki fəaliyyəti barədə məlumat verib. Diqqətə çatdırıb ki, ötən il ərzində Beynəlxalq Türk Akademiyası 30-dan çox beynəlxalq forum, simpozium və seminar təşkil edib. Eyni zamanda akademiya tərəfindən müxtəlif dillərdə 24 kitab nəşr olunub.

Sonra 2020-ci il üzrə Beynəlxalq Türk Akademiyasının Elmi Şurasına sədrliyin Azərbaycan Respublikası Təhsil Nazirliyinə keçdiyini bildirən lövhə və hədiyyə Ceyhun Bayramova təqdim edilib.

Daha sonra iclasda təşkilatın 2020-ci il üçün əsas elmi istiqamətləri, fəaliyyət prioritetləri və keçirilməsi planlaşdırılan türk dünyasının önəmli yubiley tədbirlərinin siyahısı, o cümlədən təhsil və elm sahəsində əməkdaşlıq məsələləri müzakirə edilərək təsdiqlənib.

Xatırladaq ki, 2019-cu il oktyabrın 15-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VII Zirvə görüşü ilə təşkilata sədrlik Azərbaycana və müvafiq olaraq Beynəlxalq Türk Akademiyası Elmi Şurasının sədrliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinə keçib.

# Vaşinqtonda dondurulmuş münaqişələr və Ermənistanın işğalçı siyasəti müzakirə olunub

Vaşinqtonda "Demokratiyanı Müdafiə Fondu" Analitik Mərkəzinin dondurulmuş münaqişələrə və bu münaqişələrə cəlb edilmiş tərəflərə münasibətdə dövlətlərin və beynəlxalq təşkilatların ikili standartlarına həsr olunmuş yeni məruzəsinin müzakirələri keçirilib.

AZƏRTAC xəbər verir ki, fondun vitse-prezidenti Conatan Şanzerin moderatorluq etdiyi tədbirdə məruzə müəllifləri - Mərkəzi Asiya və Cənubi Qafqaz İnstitutunun və "İpək Yolu" Araşdırmalar Proqramının direktoru Svante Kornel və beynəlxalq münasibətlər sahəsində ekspert, Corctaun İnstitutunun professoru Brenda Şaffer çıxış ediblər.

Onlar bildiriblər ki, uzunsürən münaqişələrə cəlb edilmiş ərazilər barəsində siyasətin işlənib hazırlanması hökumətlərin, şirkətlərin və qeyri-hökumət təşkilatlarının daimi problemidir. Dünyada xeyli mübahisəli ərazi və işğal zonası olduğuna görə hər hansı bir münaqişə barəsində siyasətin işlənib hazırlanması zamanı belə bir sual ortaya çıxır: başqa münaqişələrə də analoji siyasət tətbiq edilə bilərmi? Müxtəlif növ siyasətlərin yeridildiyi yerdə sual yaranır: bu fərqlər hansı prinsip üzərində qurulur, yaxud hansı məqsədləri güdür?"

Ekspertlər bildiriblər ki, Avropa Məhkəməsinin bu yaxınlarda çıxardığı qərara görə, Avropa İttifaqına gətirilən və İordan çayının qərb sahilindəki yəhudi məskənlərində istehsal edilən mallar olduğu kimi dəqiq göstərilməlidir. Bununla belə, nə Avropa Məhkəməsi, nə də Avropa İttifaqı digər işğal zonalarından, o cümlədən Azərbaycanın Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ regionundan olan mallar barəsində analoji siyasət tətbiq etməyib.

Ərazi münaqişələri bütün tarixboyu olub. Lakin əsas prinsipləri sərhədlərin toxunulmazlığı və onların dəyişdirilməsi üçün güc tətbiqinin yolverilməzliyi olan Birləşmiş Millətlər Təşkilatının yaradılması uzunsürən münaqişələrin çoxalmasına gətirib çıxarıb. Əvvəllər işğal edilmiş ərazi üzərində uzunmüddətli nəzarət bu ərazi üzərində üstünlüyü olan dövlətin iddialarının qəbul olunmasını mümkün edirdi. Hazırda BMT belə iddiaların qəbul edilməsinə mane olur, amma əvvəlki kimi status-kvoya əhəmiyyətli dərəcədə təsir göstərə bilmədiyinə görə, belə əraziləri uzun müddət qeyri-müəyyən vəziyyətdə saxlayır.

Problem təkcə bunda deyil ki, BMT, Birləşmiş Ştatlar, Avropa İttifaqı, özəl korporasiyalar və QHT-lər son dərəcə məntiqsiz hərəkət edirlər. Məsələ bundadır ki, onların siyasəti selektivdir və çox vaxt qərəzli münasibəti üzə çıxarır. Bu da beynəlxalq münasibətlər sistemində daha dərin problemlərin olduğunu göstərir.

Kornel və Şaffer bildiriblər ki, hazırda bəzi işğalçı dövlətlər işğal edilmiş ərazilərə nəzarət etdiklərini həmin ərazilərdə oyuncaq rejimlər yaratmaq vasitəsilə pərdələməyə çalışırlar. Rəsmi Yerevanın Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda qurduğu oyuncaq rejim bunun bariz nümunəsidir. Bu oyuncaq rejimlər beynəlxalq birlik tərəfindən tanınmasa da, onların muxtariyyətinin imitasiyası işğalçı dövlətə fayda gətirir. Bundan fərqli olaraq, ərazi mübahisəsində öz bilavasitə rolunu etiraf edən ölkələr, bir qayda olaraq, işğal edilmiş ərazilərə oyuncaq rejim yaratmaq vasitəsilə nəzarət edən dövlətlərdən daha çox xarici təzyiqlə üzləşirlər.

Müzakirələr zamanı qeyd edilib ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun və ətraf rayonlarının işğalına gəldikdə isə bütün azərbaycanlı əhali həmin ərazilərdən qovulub. B.Şaffer deyib ki, 700 mindən çox etnik azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən öz doğma yurd-yuvasından didərgin salınıb, onların əmlakı isə bu günədək istifadə olunur. Faktlara əsaslanan hesabatda o da bildirilir ki, Ermənistan-Azərbaycan münaqişəsi 1988-ci ildə Ermənistanın Azərbaycana ərazi iddiaları, hələ Sumqayıt hadisələrindən əvvəl azərbaycanlıların Ermənistandan qovulmasının birinci fazası ilə başlayıb.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ilin aprel-noyabr aylarında Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalını pisləyən, erməni silahlı qüvvələrinin həmin ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkün azərbaycanlıların doğma torpaqlara qaytarılması üçün şəraitin yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. BMT Baş Assambleyası 2008-ci ilin martında 62/243 nömrəli qətnamə qəbul edərək, beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə olunmuş mövqeyini bir daha təsdiq edib. BMT Təhlükəsizlik Şurasının bu qətnamələri əsasında müxtəlif ölkələrin qanunverici orqanları və beynəlxalq təşkilatlar tərəfindən erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən onlarca qətnamə qəbul edilib.

9 fevral Milli Məclisə seçkilər günüdür

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2020-ci il 21 yanvar tarixli iclasının protokolu təsdiq olunub. Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə iclasa çıxarılan müraciətlər Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar verilib.



Beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərlə bağlı cari məsələlərə baxılıb.

**Qərar № 17/106**

## Mərkəzi Seçki Komissiyasının 21 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 21 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.01.2020-ci il*

**Qərar № 17/107**

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 38 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimova Gülzar İsaxan qızı 2020-ci il yanvarın 28-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı onun hüquqlarının pozulmasını iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir. Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin artırılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət onunla əsaslandırılmışdır ki, müvafiq qərar qəbul edilməsi üçün müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi üçün dairə seçki komissiyasının da araşdırmaya cəlb edilməsi məqsədilə araşdırma müddətinin artırılması zəruridir.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırılma aparılması üçün müddət 3 gün artırılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimova Gülzar İsaxan qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 38 saylı müraciətinin araşdırılması müddəti 3 gün artırılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.01.2020-ci il*

**Qərar № 17/108**

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 39 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxşəliyev Ərəstun Əli oğlu, 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlu və digərləri 28 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir. Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət onunla əsaslandırılmışdır ki, müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi və müvafiq qərar qəbul edilməsi üçün müraciətə əlavə olunmuş videomaterialın Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən mətbuat qrupu təmsilçilərinin də iştirakı ilə birgə araşdırılması məqsədilə müddətin artırılması zəruridir.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırılma aparılması üçün müddət 3 gün artırılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxşəliyev Ərəstun Əli oğlu, 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlu və digərlərinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 39 saylı müraciətinin araşdırılması müddəti 3 gün artırılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.01.2020-ci il*

# MSK-nın nəzdindəki Mətbuat Qrupunun yeni tərkibdə ilk iclası keçirilib



Yanvarın 30-da Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən Mətbuat Qrupunun yeni tərkibdə ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası MSK-nın üzvü, Mətbuat Qrupunun rəhbəri Qabil Orucov açıb.

O qeyd edib ki, qrupun yaradılmasında əsas məqsəd KİV-də seçkiqabağı təşviqatın aparılması qaydalarına əməl olunmasına nəzarət etməkdir. Q.Orucov bildirib ki, qrupun fəaliyyəti MSK tərəfindən qəbul edilmiş müvafiq əsasnamə ilə tənzimlənir.

"Bizim əsas vəzifəmiz daxil olan müraciətlərə baxaraq onları müzakirə üçün MSK-nın iclasına təqdim etməkdir. Mətbuat qrupunun bu toplantısının məqsədi bəzi məsələləri müzakirə etməkdir. Qeyd edim ki, seçki qanunvericiliyi sosial media ilə bağlı məsələləri tənzimləmir. Bu gün mən istərdim ki, əsasən sosial şəbəkələrdən istifadə etməklə seçkiqabağı təşviqat aparmaq istəyi ilə əlaqədar bəzi məsələləri müzakirə edək. Burada tənzimedici mexanizmlərin olmaması o demək deyil ki, sosial mediada məsuliyyət nəzərə alınmamalıdır. Artıq sosial şəbəkələr araşdırma zamanı istifadə olunan əsas mənbələrdəndir. Qanun həm əməl etmək, həm də hörmət etmək üçündür. Yəni seçkili orqanda təmsil olunmaq istəyən şəxs qanuna həm əməl, həm də hörmət etməlidir", - deyə MSK üzvü əlavə edib.

Q.Orucov deyib ki, özünü bloger adlandıran şəxslər seçkiqabağı təşviqat zamanı müxtəlif istiqamətlər üzrə fəaliyyət aparırlar. Müəyyən çatışmazlıqları ortaya çıxarmaq, təxribatçı fəaliyyət göstərmək istəyənlər də var. "Bəzən belə halların şahidi oluruq ki, bir namizəd digər namizəd barədə sosial media vasitəsilə müəyyən fəaliyyətlər həyata keçirir. Biz burada, ilk növbədə, qanunvericiliyin tələblərini başa düşməliyik. Ümumiyyətlə, seçkiqabağı təşviqat necə aparılmalıdır? Namizəd öz təşviqat hüququnu digər namizədin fəaliyyətini qiymətləndirmək istiqamətində reallaşdırmalıdırmı? İstərdim ki, bu kimi məsələlər ətrafında müzakirələr aparaq", - deyə o vurğulayıb.

Seçki Məcəlləsinin 88-ci maddəsində aydın şəkildə yazılıb ki, seçkiqabağı təşviqatda sui-istifadəyə yol verilmir. Məcəllədə göstərilir ki, sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqata yol verilmir. Bu məqamlar cinayət qanunvericiliyinin təsiri altına düşür. İnzibati və mülki qanunvericiliyin təsiri altına düşən fəaliyyətlər də ola bilər.

Q.Orucov bildirib ki, namizədlərin bərabərlik statusunun təmin olunması azad rəqabət mühitinin yaradılmasının əsas prinsiplərindən biridir. Namizədlərin bərabərlik statusu təmin edilməlidir. Namizəd tərəfindən digər bir namizədin şərəf və ləyaqətinin alçaldılmasına yönələn fəaliyyət qanunla qadağan olunur. Əgər bir namizədin əleyhinə hər hansı fəaliyyət olursa, digər namizədə öz hüquqlarını müdafiə etmək üçün də şərait yaradılmalıdır.

Q.Orucov hələlik qrupa müraciətin daxil olmadığını deyib. MSK-nın və Mətbuat Qrupunun üzvü Fuad Cavadov sosial medianın günbəgün artan rolundan danışaraq bildirib ki, bu, günümüzün reallığıdır. Görürük ki, zaman keçdikcə sosial şəbəkələr vasitəsilə seçkiqabağı təşviqat aparılmasına daha çox yer verilir.

MSK-nın və Mətbuat Qrupunun üzvü Almas Qəhrəmanlı ünvanlanan suala cavabında qeyd edib ki, təhqir və böhtan istənilən halda cinayət məsuliyyəti yaradır.

"Ödənişsiz təşviqata qoşulan media qurumunda böhtan xarakterli məlumat yayılırsa, həmin qurumun birbaşa vəzifəsidir ki, digər namizədə də şərəf və ləyaqətini qorumaq üçün şərait yaratsın və təkzib versin", - deyə A.Qəhrəmanlı vurğulayıb.

Azərbaycan Mətbuat Şurası sədrinin müavini, MSK nəzdindəki Mətbuat Qrupunun üzvü Müşfiq Ələsgərli isə bildirib ki, sosial şəbəkələr dünyanın heç bir ölkəsində tənzimlənmir.

2016-cı ildə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə belə bir əlavə edildi ki, harada olmasından asılı olmayaraq, təhqir və böhtan cinayət məsuliyyəti yaradır. Amma bunun namizədlərə aid olub-olmadığı aydın deyil. Yaxşı olar ki, namizədlərlə bağlı standartlar nəzərdə tutulsun. Sosial şəbəkələrə gəlincə, hansısa mexanizmlərin tətbiq olunması uğurlu praktika deyil.

Sonda Mətbuat Qrupunun üzvləri KİV-də seçkiqabağı təşviqatın aparılması qaydaları ilə bağlı müxtəlif məsələlər ətrafında geniş müzakirə aparıb və ünvanlanan suallar cavablandırılıb.

# Şabran-Siyəzən seçki dairəsi üzrə maarifləndirici treninqlərə aşağı seçki komissiyalarının 420 üzvü cəlb edilib

Yanvarın 30-da 54 saylı Şabran-Siyəzən seçki dairəsində Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsi proqramı çərçivəsində təşkil olunan treninqlər davam etdirilib.

AZƏRTAC xəbər verir ki, fevralın 2-dək davam edəcək treninqlər seçki dairəsinin 70 məntəqəsi üzrə, ümumilikdə 420 aşağı seçki komissiyası üzvünü əhatə edir.

Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən keçirilən məşğələlər gündə iki dəfə olmaqla, hər sessiyada 36 nəfərədək üzvün iştirakı ilə təşkil edilir.

Əyani vəsaitlərdən istifadə edilməklə keçirilən treninqlərdə məntəqə seçki komissiyalarının üzvləri səsvermə prosesi, seçki prosesində müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla, seçki günü prosedurları barədə ətraflı məlumatlandırılır, praktiki məşğələlər zamanı müxtəlif mövzular ətrafında müzakirələr aparılır və iştirakçıları maraqlandıran suallar cavablandırılır.

Dairə seçki komissiyasının sədri Saleh Təhməzov bildirib ki, treninqlər zamanı hər bir aşağı seçki komissiyası üzvünə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış "Seçki günü üçün yaddaş kitabçası", səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri sənəd nümunələri təqdim olunur.

Seçki komissiyasının sədri qeyd edib ki, dairə üzrə 18 namizəd qeydə alınıb. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, seçicilərin ümumi sayı 52 min 315 nəfərdir.

Aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər şimal bölgəsində 51 saylı Qusar, 52 saylı Quba, 53 saylı Quba-Qusar, 55 saylı Xaçmaz şəhər və 56 saylı Xaçmaz kənd seçki dairəsi dairə seçki komissiyalarının hər birində təşkil edilib.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında təşkil olunan məşğələlər MSK-nın təlim kurslarında iştirak etmiş trenerlər tərəfindən aparılır.

# Seçki hazırlığı davam edir

## 33 saylı Xətai birinci seçki dairəsində müşahidələrimiz göstərdi ki, seçkilərin demokratik və şəffaf keçirilməsi tam təmin olunacaq

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, bu seçki dairəsi bütün seçkilərdə seçicilərin yüksək fəallığı ilə fərqlənib. Dairə seçki komissiyasına gəlişimiz məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlərin keçirildiyi vaxta təsadüf etmişdi. Dairə Seçki Komissiyasının sədri Əlibaba Bayramovun sözlərinə görə, bu seçki dairəsindən Milli Məclis deputatı seçilmək uğrunda 12 namizəd mübarizə aparır. Onlardan 3-nün namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb. 8 nəfər isə öz təşəbbüsü ilə və ya bitərəf kimi seçki marafonuna qatılıb. Namizədlərdən 3-ü qadındır.

Qeyd edək ki, bu seçki dairəsində 47614 seçici qeydə alınıb. Onlar dairə üzrə 39 seçki məntəqəsində öz səslərini verəcəklər. Dairə üzrə





ən yaşlı seçici isə 110 yaşlı Nazdı İsaq qızıdır.

Görüşlərimiz zamanı onu da bildirdilər ki, həm dairə, həm məntəqə seçki komissiyalarının sədrlərinin və üzvlərinin maarifləndirilməsi üçün MSK tərəfindən mütəmadi olaraq treninqlər keçirilir, seçkilərə hazırlıq və səsvermə günü görüləcək işlər təlimata uyğun olaraq onlara ətraflı izah edilir. Hazırda məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün treninqlər davam edir. Bu treninqlər komissiya üzvlərinin seçki təcrübəsinin artırılmasında, həm də seçicilərin fəallığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdə mühüm əhəmyyət kəsb edir.

Öyrəndik ki, 33 saylı seçki dairəsi üzrə bütün seçki məntəqələrində texniki təchizat yüksək səviyyədədir. İllər öncə bütün məntəqələr yüksək səviyyədə təmir olunub. Bu proses sonrakı illərdə də davam etdirilib. Həmçinin darısqal və şəraiti pis olan seçki məntəqələrinin yerinin dəyişdirilməsi daim diqqət mərkəzində olub. Son bələdiyyə seçkilərindən də sonra bütün seçki məntəqələrinə növbəti dəfə baxış keçirilib. Hazırda parlament seçkiləri ilə əlaqədar olaraq məntəqələrin hər biri seçkiyə aid olan zəruri əşyalarla - səsvermə kabinələri, qutular, seyf ilə təchiz olunub. Onlar fasiləsiz elektrik enerjisi, telefon və internetlə təmin edilib. Seçki məntəqələrinin təmiri isə daim diqqət mərkəzində olduğundan dairə üzrə bu sahədə vəziyyət təqdirəlayiqdir.

Müşahidələrimiz zamanı məlum oldu ki, seçki məntəqələrinə seçici siyahılarının asılması üçün müasir standartlara cavab verən lövhələr də verilib. O cümlədən bütün seçki məntəqələrinə yaxın ərazilərdə təşviqat lövhələri yerləşdirilib. Bundan başqa, namizədlərin təbliğat və təşviqatı üçün münbit şərait yaradılıb.

33 saylı seçki dairəsi üzrə seçki məntəqələrinin 10-da veb-kameralar quraşdırılıb. Bu kameralar vasitəsilə dünyanın istənilən nöqtəsindən seçkinin gedişatını internetdən izləmək mümkün olacaq. Dairə üzrə seçkini izləmək üçün isə indiyədək 746 nəfər müşahidəçi qeydə alınıb.

Seçkilər hər bir xalqın tarixində mühüm rol oynayan, onun gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi proses kimi xarakterizə olunur. Bu prosesin məntiqi yekunu olaraq da hər bir xalq öz taleyini inandığı, etibar etdiyi siyasi qüvvə və şəxslərlə bağlayır. 33 saylı Xətai birinci seçki dairəsindəki müşahidələrimiz göstərdi ki, parlament seçkilərinin demokratik, ədalətli və şəffaf keçirilməsi tam təmin olunacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





# Mehriban Əliyevanın himayəsində, dövlətin diqqətində

## Autizmdən əziyyət çəkənlər daim Birinci vitse-prezidentin şəxsi nəzarəti altındadırlar







*Əvvəli 1-ci səh.*

### "Kaşalata"nın göy önlüklü ofisiantları...

Biz də autizmli uşaqların dünyasına baş vurmaq üçün "Birgə və Sağlam" Autizmlə Mübarizə İctimai Birliyinin yerləşdiyi ünvana üz tutduq. Bu mərkəzdə autizmli uşaqlar və yeniyetmələr həm təhsil alır, həm də dünyagörüşlərini artırmaqla yanaşı, müxtəlif peşə bacarıqlarına yiyələnirlər. Peşə bacarıqlarını isə Birliyin tərkibindəki "Kaşalata" kafedə mənimsəyirlər. Təbii ki, təlimçilərin köməyi ilə. Mərkəzdə baş çəkdiyimiz ilk yer də məhz "Kaşalata" kafe oldu.

Bu balaca, rəngarəng kafeyə daxil olanda özünü başqa aləmdə hiss edirsən. Kiçik, dairəvi, rəngli, üzərlərinə çiçək qoyulan masalar, kürəyi buruq ağ stullar, al-əlvan pərdələr, bir küncdə uşaqların rəsm əsərləri, digər küncdə sintizator və tər-təmiz piştaxta arxasında göy önlüklü, əlləri əlcəkli, başları papaqlı uşaqlar - ofisiantlar...

İçəri daxil olan kimi uşaqlardan biri gülərüzlə bizi qarşılayıb salamlaşır, "xoş gəldiniz" deyir. Mətbəxdə qızğın iş gedir. Öyrənirik ki, bu gün uşaqlar "ponçik" şirniyyatı hazırlayırlar.

"Kaşalata" kafenin təlimçisi Xanım Əsgərova deyir ki, yeniyetmə və gənc autizmli şəxslər burada müxtəlif peşə bacarıqlarına sahib olmağa çalışırlar. Onların hər biri üçün xüsusi fəaliyyət cədvəli tərtib olunur. Uşaqlar bu cədvəllərdən istifadə edərək, heç kimdən asılı olmadan öyrənməyə çalışırlar: "Fəaliyyət cədvəllərini hazırlayarkən maksimum sadə dillə yazırıq. Oxumağı və yazmağı bacarmayan uşaqlara isə şəkillər vasitəsilə göstərib izah edirik. Hər uşaqla bir müəllim-təlimatçı məşğul olur. Elə uşaq var ki, 3 dəfədən sonra hansısa işi özü sərbəst etməyi öyrənir. Bu, uşağın potensialından asılıdı. Hazırda kafedə 12-21 yaş arası 13 uşaq fəaliyyət göstərir. Onlar bir çox bacarıqlar qazanıblar. Çay, qəhvə dəmləyir, kartof fri, tost hazırlayır, şirniyyatlar bişirirlər. Kafe hissəsində sifarişlərin hazırlanması, verilməsi, həmçinin təmizlik, qabların yuyulması kimi işləri yerinə yetirmək burada işləyən hər bir uşağın vəzifəsidir. Bəzən bişirdiklərini kafeyə gələn qonaqlara servis edirlər. Bəzən özləri oturub yeyirlər. Atelye hissəsində isə uşaqlar dincəlir, birgə vaxt keçirir, əl işləri hazırlayırlar. Bu, onların çox xoşuna gəlir, məmnun qalırlar".

Yəqin ki, kafenin adının - "Kaşalata"nın nə demək olduğunu düşünürsüz. Bunu kafenin yaradılmasının təşəbbüskarı "Birgə və Sağlam" Autizmlə Mübarizə İctimai Birliyinin sədri Aytən Eynalova gülümsəyərək belə izah edir: "Bu sözün tarixçəsi oğlu itirdiyi nitqi təzədən bərpa etdiyi zamanlara gedib çıxır. Salatı çox sevirdi. "Qaşıq" sözünü "salat" ilə birləşdirib, bütün yeməklərə "kaşalata" deyirdi. Bu sözü ilk dəfə səsləndirəndə bizə maraqlı gəldi. Fikirləşdik ki, gələcəkdə bir restoran açıb adını "Kaşalata" qoyarıq. Tale elə gətirdi ki, o adı bu kafeyə qoyduq. Kafenin əsas məqsədi gəlir əldə etmək deyil. Bura kiçik olduğundan müştərilər, əsasən, dost-tanışların məsləhəti ilə gələnlərdir. Müxtəlif ictimai təşkilatlar, tələbələr, blogerlər, valideynlər məlumat alıb kafeyə gəlirlər. Məqsədimiz həm uşaqlara sosial adaptasiya mühiti yaratmaq, həm də onları peşə ilə təmin etməkdir. Yəni autizm sindromlu bir gənci cəmiyyətə hazırlamaq, onları cəmiyyətdə fərqlilikləri ilə qəbul edə biləcək hala gətirməkdir. Uşaqlarımız burada əldə etdikləri təcrübə və bilikləri ilə gələcəkdə hansısa bir kafe və restoranda işləyə bilərlər".

### "Oğlumun diaqnozunu ilk dəfə özüm qoydum"

Aytən Eynalova ilə birlikdə mərkəzi gəzirik. Sədr bildirir ki, birliyin əsas məqsədi autizmli uşaqlara, gənclərə və onların ailələrinə dəstək olmaq, eyni zamanda ölkə səviyyəsində autizmlə bağlı maarifləndirici layihələr həyata keçirməkdir. Belə bir təşkilat yaratmasının səbəbkarı isə oğlu Həmzə Paşadır. Belə ki, Həmzə Paşanın 2 yaşı olanda ona autizm diaqnozu qoyulur. Ondan sonra ailənin bu yolda "macərası" başlayır: "Oğlum 1 yaş 2 aylıq olanda problemlər hiss etməyə başladım. Bütün inkişaf mərhələlərində hər şey normal ikən birdən-birə geriləmə başladı. Nitqi var idi, sonra tamamən itdi, göz kontaktı yox oldu. Bunları görəndə təşvişə düşdüm, həkim-həkim gəzməyə başladım. Həmin müddətdə özüm də internetdə araşdırmalar edirdim və simptomları autizmə oxşadırdım. Əslində, oğlumun diaqnozunu ilk dəfə özüm qoydum. Düzdür, bir çox adam məni yanıltmağa çalışırdı ki, bu, autizm deyil. Təəssüf ki, ölkəmizdə bu xəstəliyin dəqiq diaqnozunu qoyan həkim də olmadı. Uşağın yaşı çox kiçik olduğu üçün autizmə oxşatmadılar, dedilər zamanla düzələcək, problemin məndə olduğunu ifadə etdilər. Diaqnozu qoya bilmədikləri üçün Türkiyəyə yola düşdük. Orada 10 dəqiqəlik müayinədən sonra oğluma "atipik autizm" diaqnozu qoyuldu. Ölkəyə qayıdandan sonra mütəxəssislərlə görüşdük, proqramlar təyin olundu. Amma baxdım ki, problem bu şəkildə həll olunmayacaq. Dünya təhsili və araşdırmaları autizmli uşaqla həftədə minimum 20, maksimum 40 saat məşğul olmaq lazım olduğunu və yalnız o zaman həyata tutuna biləcəklərini söyləyirdi. Mən isə Azərbaycanda bu sahədə heç bir reabilitasiya mərkəzi tapa bilmirdim. Söhbət 14 il öncədən gedir. Ona görə də yoldaşımla universitet təhsili aldığımız Türkiyəyə köçdük, orada reabilitasiyalarına başladıq. Bu, elə bir haldır ki, ailədə mütləq bir adam özünü o uşağa fəda etməlidi. Bu da ana olur. İş həyatımı dayandırıb özümü övladıma həsr etdim. Onun reabilitasiyası, inkişafı, sosial həyatı ilə məşğul olmağa başladım. 5 il sonra vətənimizə qayıtdıq... İndi oğlumun 16 yaşı var. Yaraşıqlı yeniyetmədir. Sıx reabilitasiya nəticəsində çox gözəl özünəqulluq bacarıqlarını həyata keçirir. Oxuması, yazması var, akademik bacarıqları yaxşı inkişaf edib. Özünü idarə edir. Gözəl musiqi və idman bacarığı var. Amma hələ də sərbəst həyatda yaşaya bilmir, yanında dəstəyi olmalıdır".

### "Biz daim Mehriban xanımın nəzər-diqqətindəyik"

Aytən xanım söyləyir ki, hələ Türkiyədə yaşadıqları müddətdə həyat yoldaşı Həzi Eynalovla birlikdə autizmlə bağlı layihələr hazırlamağa başlayıblar. Onların müraciəti nəticəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə Türkiyənin TİKA təşkilatı arasında 18 aylıq layihə həyata keçirilib. Azərbaycandan bu sahənin 5 mütəxəssisi Türkiyənin Qazi Universitetinin xüsusi təhsil fakültəsində qonaq tələbə qismində təcrübə keçib, təhsil alıblar. Ölkəmizə qayıdandan sonra Aytən Eynalova bir müddət özəl qurumda işləyib, orada uşaq bölməsini qurub. Lakin bununla məhdudlaşmamaq, daha geniş iş qurmaq qərarına gəlib: "Anladım ki, dəstək verə biləcəyim insanlar qismi bununla məhdudlaşmamalıdı, sosial iş olmalıdı. Bunun da ən uyğun yolunun ictimai birlik yaratmaq olduğunu düşündüm. Beləcə, 2013-cü ildə yoldaşımla birikdə təşkilatı təsis etdik. Həmin ildən etibarən autizm sindromlu uşaqların təhsilinə, ümumi vəziyyətlərinə, ailələrinə dəstək olmağa başladıq. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, "Lider qadınlar" İctimai Birliyinin dəstəyi ilə ölkəmizdə autizmlə bağlı maarifləndirici layihələr həyata keçiririk. Müxtəlif konfranslar, konqreslər, Tibb Universitetində panellər, seminarlar, mavi geyimlərdə bulvarda yürüşlər keçirib, ticarət və alış-veriş mərkəzlərində buklet və fayllar paylamışıq. Ən önəmli layihəmizi - ölkəmizdə autizm sindromlu yeniyetmələrin fəaliyyət göstərəcəyi xor və ritm qruppasını qurduq. 2 il bundan öncə Muğam Mərkəzində Natiq Şirinovun, Tünzalə Ağayevanın dəstəyi ilə konsert keçirdik. 2 aprel - Dünya Autizm Məlumatlandırma günündə "Mavi işıqla işıqlandır" aksiyasına Bakının ən məşhur binaları - "Alov" qüllələri, Qız qalası, Bakı Kristal zalı, Bakı Olimpiya Stadionu, SOCAR-ın binası qoşularaq "biz də sizin yanınızdayıq" deyirlər".

"Birgə və Sağlam" Autizmlə Mübarizə İctimai Birliyi son 3 ildi "SOCAR Türkiyə"nin dəstəyi ilə Amerikanın Uşaq İnkişaf İnstitutunun təhsil sistemini Azərbaycana transfer edib. Keçən il BP Azərbaycan və tərəfdaşlarının dəstəyi ilə ölkəmizdəki reabilitasiya mərkəzlərinin 55 mütəxəssisi xarici ekspertlər tərəfindən hazırlandı. Azərbaycanda ilk dəfə olaraq "Autizmli fərdlər üçün material və fəaliyyət kitabı" nəşr olundu. Yaxın günlərdə isə autizm veb portalı təqdim ediləcək. Autizmli uşaqla necə işləmək lazımdırsa, mərhələli şəkildə videolarla orda paylaşılacaq. Kitabın PDF variantı da portalda yerləşdiriləcək. Autizmli övladı olan valideynlər həmin materiallardan sərbəst şəkildə istifadə edə biləcəklər.

Birlik Heydər Əliyev Fondunun, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim nəzarətində və diqqətindədir: "Ötən il fondun dəstəyi ilə Heydər Əliyev Mərkəzində I Autizm Mədəniyyət Festivalı təşkil edildi. Festivalda fondun vitse-prezidenti Leyla Əliyevanın əsəri köçürülmüş parçadan hazırlanan kolleksiya təqdim olundu. Modelyer-dizayner Zemfira Musayevanın hazırladığı kolleksiyanı podiumda reabilitasiya mərkəzimizin 10 uşağı nümayiş etdirdi. Heydər Əliyev Fondunun dəstəyilə bu ilin fevralında "Fərqli fərdlər" konqresi, apreldə II Autizm Mədəniyyət Festivalı keçiriləcək. Eləcə də bir neçə mütəxəssisimiz xaricə təlimə göndəriləcək. Heydər Əliyev Fondunun qayğısı daim üzərimizdədir, müxtəlif tədbirlərimizin təşkilində dəstəyini bizdən əskik etmir. Bu diqqət və qayğının ən bariz nümunəsi isə ötən ilin oktyabrında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bizim reabilitasiya mərkəzini ziyarət etməsi oldu. O gün bizim üçün unudulmaz, həyəcanverici bir gün idi. Bu vaxta kimi mərkəzimizi çoxları ziyarət edib. Amma Mehriban xanım kimi səmimi, anlayışlı, uşaqları başa düşən ziyarətçi görməmişdim. O, uşaqlarımızla fərqli ünsiyyət qurdu. Onların hər birilə tək-tək danışdı, mütəxəssislərimizlə söhbət etdi, problemlərimizi soruşdu, "nəyə ehtiyacınız olarsa, bizə müraciət edin" dedi. Biz ölkəmizdə Autizm Mərkəzinin qurulması yönündəki təklifimizi səsləndirdik. Mehriban xanım da qarşıda bu yöndə çox yaxşı çalışmalar olacağı müjdəsini verdi. Bu da bizi sevindirir. Bilirsinizmi bu, autizmli övladı olan ailələr üçün necə ümidverici xəbərdir?! Övladlarımızın ömür boyu məhkum olduğu bu zillətlə mübarizə aparmağımızda Mehriban xanım Əliyevanın hər zaman bizimlə olduğunu və olacağını hiss etdik".

Elə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni il bayramını da Birinci vitse-prezident Mehriban Əliyeva Reabilitasiya Mərkəzində autizm sindromlu uşaqlarla qeyd etdi. Özü də bu dəfə tək yox, qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə... Mehriban xanım uşaqlarla birgə tort bişirdi, onlarla söhbət etdi. Daha sonra bişirdikləri tortu çay süfrəsi arxasında daddılar.

Birinci vitse-prezident Reabilitasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən xor kollektivi ilə birgə mahnı ifa etdi. Mərkəzin yetirməsi olan, hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin ikinci kursunda təhsil alan Əlisahib Bayramov və digər uşaqlar pianoda müxtəlif musiqilər çaldılar. Beləcə, fərqli fərdlər üçün daha bir unudulmaz, xoş gün yaşandı...

### "Autizmli uşağın ən böyük problemi məktəbə gedə bilməməsidir"

Birlik sədri qeyd edir ki, hazırda autizmli uşaqların Reabilitasiya Mərkəzində 70-ə yaxın uşaq intensiv terapiya alır. Onlarla müvafiq təlim keçən 30-a qədər mütəxəssis çalışır. Terapiyada elmi və təcrübi cəhətdən sübut olunmuş tətbiqi davranış analizi sistemindən istifadə olunur: "Biz Türkiyənin "Tohum otizm" vəqfi, "SOCAR Türkiyə"nin dəstəyilə ABA (Aplied Behaviour Analysis) - tətbiqi davranış analizi sistemini Azərbaycana transfer etmişik. Bu, yeganə elmi əsaslı sistemdir. Bu sistemlə hər uşağın fəaliyyət cədvəli olur. Təlimçilər tərəfindən hazırlanmış fəaliyyət cədvəlləri uşaqların müstəqil hərəkət vərdişlərini formalaşdırmağa kömək edir. Xüsusi təhsil, musiqi, idman mütəxəssislərinin də uşaqlarla dərsləri olur. İşin çətinliyi və ağırlığı ondan ibarətdir ki, hər uşaqla bir mütəxəssis məşğuldur. Autizmli uşağın ən böyük problemi məktəbə gedə bilməməsidir. Belə uşaqlara individual yanaşma olmalıdır. Bu da bir çox orta təhsil müəssisələrində yoxdur. Məktəblər belə uşaqları qəbul etmir, etsə də, idarə edə bilmir".

Autizm anadangəlmə olub, beyin və sinir sisteminin fərqli quruluşu və ya fəaliyyətindən qaynaqlandığı qəbul edilən nevropsixiatrik bir pozuntudur. Başqaları ilə ünsiyyətdən çəkinən, fərdin daxili dünyası ilə üzüzə qalmasına yol açan autizm, ümumilikdə üç yaşdan bir qədər erkən ortaya çıxaraq uşağın davranışlarına mənfi təsir göstərir. Hələ də autizmin yaranmasının dəqiq səbəbləri elmə məlum deyil. Lakin mütəxəssislər hesab edirlər ki, autizmin yaranması həm irsi, həm də doğuşdan əvvəlki, doğuş zamanı və sonradan qazanılmış bir sıra inkişafa təsiredici faktorlarla, hamiləlik zamanı baş verən narahatlıqlar, eləcə də uşaqlıqda edilən peyvəndlərlə əlaqədar ola bilər. Müasir tədqiqatlara əsasən autizmi əsəb sisteminin patologiyası ilə əlaqələndirirlər. Tibbi müalicəsi olmadığı üçün autizm xəstəlik yox, sindrom adlandırılır: "Keçən ilin statistikasına görə, hər 59 uşaqdan biri autizmli kimi dünyaya gözünü açır. Bu, çox böyük rəqəmdir. Getdikcə artmasının səbəbi də bilinmir. Autizmin yüngül, orta və ağır dərəcəsi var. Yüngül formalı autizmli uşaqların həyata tutunma ehtimalı daha yüksəkdir. İQ səviyyəsi aşağı olmadığı üçün onun hadisələri qavraması daha asandır. Ağır dərəcəli autizmlilərdə əqli geriləmələr olduğundan qavrama və həyata tutunma bacarıqları da çətinləşir. Burada erkən diaqnozun qoyulması çox vacibdir. Körpəlikdən müdaxilə başlayanda, onları cəmiyyətə qazandırmaq mümkündür. Elə autizm sindromlu uşaqlar da var ki, onlar dahi sayılırlar. Məsələn, bizim məzunumuz Əlisahib Bayramov hazırda Mədəniyyət və İncəsənət Universitetinin 2-ci kurs tələbəsidir. İki yaş yarımından Bethoven, Bax, Üzeyir Hacıbəyli, Qara Qarayevin əsərlərini sadəcə eşitməklə pianoda ifa edib. Fərqli riyazi qabiliyyəti olan uşaqlarımız var. Beyinlərində mürəkkəb riyazi misalları həll edib deyirlər. Möhtəşəm rəsm əsərləri çəkənlər var. Sadəcə o bacarıqları üzə çıxarıb, inkişaf etdirmək lazımdır ki, onu da biz burda edirik".

### "Bu sindromla bağlı qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir"

Aytən xanım onu da qeyd edir ki, əvvəllər autizm əlamətləri olan insanlara "əqli geriləmə", "inkişaf ləngiməsi" diaqnozu yazılırdı. Lakin 2015-ci ildən etibarən autizm sindromu diaqnoz olaraq əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına aid edilib: "Hazırda dövlət autizmli şəxsə 150 manat, ona qulluq edən şəxsə 50 manat təqaüd verir. Bu da müəyyən qədər kömәkdir, hansısa ehtiyaca sərf olunur. İnanırıq ki, dövlətimizin qayğısı ilə bu məbləğ getdikcə daha da artacaq. Çünki autizmin müalicəsi bahadır. Elə buna görə də imkansız ailələr uşaqlarını reabilitasiya etdirə bilmirlər. Yaxud elə ailələr var, ata uşağının problemini öyrənəndə xanımı ilə boşanıb gedir, heç bir kömək etmir. Xarici ölkələrdə reabilitasiya mərkəzinə ödəniş dövlət tərəfindən edilir və imkansız ailənin övladı reabilitasiya təhsili alır. Bizim ölkəmizdə də imkansız ailələrin uşaqlarının reabilitasiya ala bilmələri üçün qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir. Bu, uşaqları cəmiyyətə qazandırmaq baxımından vacibdir. Ailə üçün ən böyük problem övladının autizm sindromlu olması deyil. Cəmiyyətdə yaşadığı problemlərdir, övladının digər uşaqlar kimi qəbul edilməməsidir. Halbuki o uşaqlar xəstə deyillər, sadəcə fərqlidirlər. Ümid edirəm, bu münasibət zamanla düzələcək".

*Bəli, xəstə deyil onlar... Başqa uşaqlardan nə pisdirlər, nə də yaxşı... Onlar da insandırlar. Sadəcə fərqlidirlər... Özünəməxsusdurlar...*

*Öz dünyaları var onların... Bilmədiyimiz, tanımadığımız bir dünya... Amma onları öz dünyalarına deyil, bildiyimiz, tanıdığımız, yaşadığımız və onların da yaşadığı bu dünyaya alışdırmaq, öyrəşdirmək bizim borcumuzdur. Buna isə yalnız birlikdə nail ola bilərik.*

*Bir də unutmayaq ki, tarixdə iz qoyan dahi şəxsiyyətlərin əksəriyyəti elə autizmli insanlar olublar.*

***Xəyalə MURADLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# XİN Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü ilə bağlı açıqlama yayıb

Yanvarın 28-30-da Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cenevrə görüşü son illər ərzində tərəflər arasında ən intensiv müzakirələrin aparıldığı görüş olub.

Tərəflər həmsədrlərin təqdim etdikləri gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar. Bu sırada 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, həmçinin münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələlərini qeyd etmək lazımdır. Bu xüsusda nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar.

# 270 milyard dollar sərmayə, 51 milyard dollarlıq valyuta ehtiyatı

## Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən əlverişli investisiya məkanlarından birinə çevirməkdədir

*Əvvəli 1-ci səh.*

Cənab İlham Əliyev Davosda çoxsaylı dövlət və hökumət başçıları, dünyanın aparıcı maliyyə-iqtisadi qurumlarının, şirkətlərinin rəhbərləri ilə görüşləri zamanı investorlara çağırış etdi.

Bu xüsusda Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolunun imzalanmasını, "Procter and Gamble Europe" şirkətinin regional mərkəzini yaratmaq üçün Bakını seçməsini, Azərbaycanın Naxçıvan və Qoşadaş yataqlarının Rusiyanın "LukOİL" şirkəti ilə birgə işlənməsi barədə qərar qəbul olunmasını, "Sighify" şirkətinin Azərbaycana yeni texnologiyalar gətirməsi məsələsinin müzakirə edilməsini, "Carlsberg Group" şirkətinin ölkəmizə investisiyalarını artırmaq niyyətində olmasını və Azərbaycanda sığorta bazarının inkişafı üçün "Swiss Re" şirkəti ilə əməkdaşlıq məsələlərinin müzakirə edilməsini nəzərə alsaq, deyə bilərik ki, 2020-ci ildə Azərbaycan iqtisadi sahədə mühüm nailiyyətlər əldə edəcək. İlk növbədə ölkəyə yatırılan investisiyaların həcmi əhəmiyyətli dərəcədə yüksələcək.

Göründüyü kimi, Azərbaycan Prezidentinin səfəri və keçirdiyi görüşlər ölkəmizin xarici əlaqələrinin inkişafı, dünyanın aparıcı iqtisadi qurumları ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, nəhəng şirkətlərin Azərbaycanla əməkdaşlıq qurması və investisiya yatırmaq imkanlarının genişlənməsi, respublikamızın regional mərkəz, dünyada nüfuzlu ölkə imicinin möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

### Nə üçün məhz Azərbaycan?!

Son illərdə dünya iqtisadiyyatında baş verən mənfi tendensiyalar demək olar ki, əksər ölkələrdə sərmayə qoyuluşunu azaldıb. Ancaq Azərbaycandakı mövcud investisiya imkanları və cənab İlham Əliyevin rəhbərliyi ilə yaradılan əlverişli biznes mühiti yerli sahibkarlarla yanaşı, xarici investorları da ölkəmizə cəlb edir.

İnkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşması Azərbaycanın regionda ən güclü iqtisadi potensiala malik olan ölkəyə çevrildiyini sübut edir.

Bütün bunlar investorların Azərbaycana olan marağını getdikcə artırır. Həm də ona görə ki, bu gün Azərbaycanın daxilində risklər yoxdur, ölkə sabitdir, inkişaf davamlıdır. Azərbaycan hakimiyyəti böyük imkanlar yaradan və hazırda həyata keçirilən geniş islahatlar gündəliyinə malikdir.

Ölkəmizə ən çox investisiya qoyan xarici şirkətlərin əksəriyyəti isə dünyanın 20 ən böyük ölkəsidir. Onların arasında Rusiya Federasiyası, Türkiyə, İtaliya, Almaniya, Böyük Britaniya, ABŞ, Yaponiya və digər ölkələr var.

Davos Forumunda dünyanin ən islahatçı Prezidenti kimi bir daha böyük şirkətləri ölkəmizə dəvət edən cənab İlham Əliyev bildirdi ki, Azərbaycan bugünkü biznes mühiti ilə bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaradır. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Azərbaycanda yaradılan biznes mühiti xarici şirkətlərin ölkəmizdəki ofisi vasitəsilə Şərqə doğru genişlənməsinə real zəmin yaradacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gənclər və İdman naziri Cəlilabadda vətəndaşları qəbul edib

Yanvarın 30-da Gənclər və İdman naziri Azad Rəhimov Cəlilabad rayonunda Cəlilabad, Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 14-dən çox vətəndaşın iştirak etdiyi qəbulda müraciətlər əsasən Gənclər evinin, yeni idman qurğularının tikintisi, qurğuların idman avadanlığı ilə təmin edilməsi, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi ilə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həll edilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib, digər bir qismi isə baxılması üçün icraya yönəldilib.

Ədəbi irsimiz



İctimai fikir tariximizin XIX əsrin sonu - XX əsrin ilk onilliklərinə aid dövrü ayrı-ayrı düşüncə sahiblərinin imzaları, sözləri ilə o qədər zəngindir ki, bu sərvətin miqyasını yalnız yeni tədqiqatlar sayəsində müəyyənləşdirmək olur. Ayrı-ayrı tədqiqatçılarımızın əsərlərində, elmi tapıntılarında birdən qarşına elə adlar, ədəbi simalarımızın müəllifliyi ilə yaradılmış elə söz inciləri çıxır ki, klassik irs xəzinəmizə sadəcə valeh olursan. Beləl追lərindən biri də 1869-1943-cü illərdə yaşamış, rəvan təbii dili ilə bir-birindən gözəl şeir nümunələri yaradaraq XIX əsrin sonu XX əsrin əvvəllərində Şuşada, sonra isə Bakının zəngin ədəbi mühitində özünə layiqli yer tutmuş İbrahim Məşədi Əbdül oğlu Musayevdir. Öz dövründə, daha çox İbrahim Tahir Qarabaği təxəllüsü ilə şöhrət tapmış şairin bədii irsi müasirləri ilə müqayisədə çox az öyrənilib. Zəngin və çoxcəhətli yaradıcılığa malik İbrahim Tahirin poetik irsi, publisistikası sağlığında kitab halında nəşr olunmayıb. Yalnız 2013-cü ildə, ölümündən düz 70 il sonra ayrı-ayrı poetik əsərləri müxtəlif mətbuat orqanları və arxivlərdən toplanaraq "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb.

# Klassik ənənələrə sadiq şair

## Şuşalı tacirin oğlu

İbrahim Tahir Qarabaği 1869-cu ildə Şuşa şəhərində anadan olub. Atası Hacı Əbdül əvvəlcə furqonçuluq etmiş, sonra isə bir dostu ilə şərikli manufaktura açmış və tacir kimi tanınmışdı. Atası dünyadan köçəndən sonra şair qardaşı ilə birgə həmin manufakturanın fəaliyyətini 1918-ci ilə qədər davam etdirə bilmişdi. Şuşada onu şairliyi ilə yanaşı, nüfuzlu tacir kimi də tanıyırdılar.

İbrahim Tahir Qarabaği ilk təhsilini şuşalı Molla Əli Xəlifənin məktəbində alır. Burada ərəb və fars dillərini mükəmməl öyrənir. Elə bu məktəbdə təhsil aldığı illərdə də onda ədəbiyyata dərin həvəs yaranır. Fars şairlərinin əsərləri ilə yaxından tanış olur. 20 yaşından isə özü də Tahir (ərəbcə pak, təmiz) təxəllüsü ilə şeir yazmağa başlayır.

XIX əsrdə Qarabağ ədəbi mühitində böyük nüfuz sahibi olan Mir Mövsüm Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində o zaman hələ 22-23 yaşlarında olan bu gənc şair haqqında ətraflı söhbət açılır. Burada onun fars dilində 22, Azərbaycan dilində isə 4 şeiri də verilir.

İbrahim Tahir Qarabaği gənc yaşlarından elmə, maarifə dərin rəğbət bəsləyir, mətbuat orqanlarına böyük maraq göstərirdi. Məhz bu marağın nəticəsi olaraq o, XX əsrin əvvəllərində Bakıda nəşr olunan əksər qəzet və jurnallarla əlaqə yaradır. Ardıcıl olaraq həm publisistik məqalələri, həm də kəskin ruhlu, ictimai məzmunlu şeirləri ilə həmvətənlərini cəhalətə, geriliyə qarşı mübarizəyə səsləyir. Onların istiqlal arzularını tərənnüm edir.

Zəmanəsinin tanınmış maarifpərvərlərindən biri kimi şair müəllimlik fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq dövlət qurumlarından icazə alır. 1926-cı ilə qədər Şuşadakı "Nərimaniyyə", "Bünyadiyyə", "Kamaliyyə" və Şuşa birinci qızlar məktəbində tarix müəllimi kimi çalışır. Bakıya köçdükdən sonra isə nəşriyyat sistemində işləyir. Daha çox tərcüməçilik fəaliyyəti ilə məşğul olur.

## "Nofəl" təxəllüslü müəllif kim idi?!

İbrahim Tahir Qarabaği tez-tez "Nofəl" təxəllüsü ilə "Molla Nəsrəddin" jurnalında felyetonlarla çıxış edərdi. Bu təxəllüs uzun illər ərzində yanlış olaraq məşhur qəzəlxan Əliağa Vahidə aid edilsə də, sonrakı araşdırmalar bu yazıların müəllifinin məhz İbrahim Tahir Qarabaği olduğunu sübuta yetirir. Şair "Ağcaqanad", "Şahdəyi", "Tərəqqi" və "Şişeyi" imzaları ilə "Tərəqqi", "Sədayihəqq", "Yeni kənd" və s. bu kimi dövrü mətbuat orqanlarında da mütəmadi çıxışlar edərmiş. Bu faktı görkəmli alim Qulam Məmmədli "İmzalar" kitabında göstərir. Bundan başqa, "İbrahim Musayev", "İbrahim Tahir", "İbrahim Tahir Qarabaği", "İbrahim Tahir Şuşi" də onun şeir və məqalələrində istifadə etdiyi imzalardan idi.

İbrahim Tahir Qarabaği mətbuatda işıq üzü görən məqalələrində dövrün aktual problemlərinə toxunur, mütərəqqi ruhlu ziyalı kimi qələm yoldaşlarının diqqətini xalqın maarifləndirilməsi, ictimai problemlərin həlli məsələlərinə yönəldirdi. Ayrı-ayrı yazarlar, mətbuat orqanları, fikir cərəyanları arasında o vaxtlar üçün çox geniş yayılmış mənasız dartışmalar, didişmələr, hətta qarşılıqlı təhqirlər onu ən çox narahat edən məsələlərdən idi. İbrahim Tahir Qarabaği bu mübahisə və münaqişələrin insanlar üçün heç bir faydasının olmadığını bildirir, ziyalılar arasında barış yaratmağa çalışır, başqalarını da buna çağırırdı.

Dövrünün qabaqcıl ziyalısı kimi, o, xalqın maariflənməsində, mədəni inkişafında mətbuatın missiyasını aydın dərk edir, mətbu sözün təsir gücünün öz ali məqsədlərinə deyil, mənasız çəkişmələrə sərf olunmasını yanlış sayırdı. Bu müdrik ziyalını narahat edən həm də o idi ki, xalqın öz dogma ana dilində qəzet-jurnala, mətbu sözə əşədü-ehtiyacının olduğu bir zamanda millətsevər ziyalılarımızın min bir əziyyətlə yaratdıqları mətbuat orqanlarını birdən çar üsul-idarəsi, senzura bu cür qarşıdurmaları bəhanə edərək bağlaya bilərdi. Şair xalqın elm, ədəb sahibi olmasında mətbuatın müstəsna rol oynayacağını ziyalı təəssübkeşliyi ilə daim diqqətə çatdırırdı.

O dövrdə Azərbaycan ziyalıları müəyyən qütblərə bölünmüşdülər. Məsələn, "Füyuzat" jurnalı ilə "Molla Nəsrəddin"çilər arasında müxtəlif məsələlərə münasibətdə kəskin ziddiyyət yaranmışdı.

İbrahim Tahir Qarabaği isə bütün qütblərdən olan ziyalılarla yaxın münasibət saxlayırdı. Onun Cəlil Məmmədquluzadə, Əhməd bəy Ağaoğlu kimi görkəmli ziyalılarla sıx dostluq əlaqələri vardı. O, 1926-cı ildə Bakıya köçəndən sonra Cəlil Məmmədquluzadə tez-tez şairin evinə qonaq gələr, aralarında maraqlı ədəbiyyat müzakirələri, duzlu-məzəli söhbətlər olarmış.

İbrahim Tahir Qarabağinin külliyyatı içində onun Mirzə Cəlilə ünvanladığı zarafatyana şeirlər çoxdur və bu da onların yaxın dostluq münasibətlərindən xəbər verir.

Ümumilikdə isə şairin irsini ardıcıl şəkildə nəzərdən keçirən tədqiqatçılar ötən əsrin 20-ci illərinin ortalarından başlayaraq Bakı mühitinin onun yaradıcılığına müsbət təsir göstərdiyini yazırlar. Məhz bu dövrdən etibarən onun fəaliyyət çevrəsi genişlənir, mövzu dairəsi çoxşaxəli istiqamətlərə yönəlir.

## Mütərcim

Bu həm də elə bir dövr idi ki, ötən əsrin 30-cu illərinə doğru klassik Şərq və Azərbaycan şairlərinin irsinə münasibət müsbət mənada dəyişir, tərcümə sənətinin inkişafına təkan verilir və fars dilini mükəmməl bilən tərcüməçi şairlərə böyük ehtiyac yaranırdı. İbrahim Tahir Qarabaği də bu prosesin fəal iştirakçılarından idi. Təsadüfi deyil ki, həmin illərdə dahi fars şairi Əbülqasim Firdovsinin "Şahnamə" əsərinin ilk tərcüməçilərindən biri məhz o olmuşdu. İbrahim Tahirin mükəmməl fars dili biliklərinə, şairlik istedadına və tərcüməçilik bacarığına bələd olan müəyyən təşkilatların rəhbərləri son dərəcə məsuliyyətli bir dövrdə "Şahnamə"nin iki irihəcmli hissəsinin "Zöhhak və "Gavə", eləcə də "Səyavuş" hissəsinin hərfi tərcüməsi ilə yanaşı, onların Azərbaycan dilində nəzmə çəkilməsi işini də İbrahim Tahirə həvalə etmişdilər. O, üzərinə düşən vəzifəni uğurla yerinə yetirmiş, 1934-cü ildə həmin dastanlar Ruhulla Axundovun elmi redaktorluğu ilə 5000 tirajla nəşr edilmişdi. Bu tərcümə işinin yüksək uğurundan irəli gəlirdi ki, "Şahnamə"nin müvafiq hissələrinin ardınca Ömər Xəyyam, Xaqani Şirvani, Nizami Gəncəvi, Hafiz Şirazi, Əlişir Nəvai və başqa klassik Şərq şairlərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi də məhz ona etibar edilmişdi.

İbrahim Tahir Qarabaği bu şairlərin də əsərlərinin müəyyən qismini Azərbaycan dilinə uğurla çevirmişdi.

## Millət şairi

O, öz zəmanəsini qabaqlamış şair idi. Şeirlərində ictimai-siyasi motivlər xüsusi yer tuturdu. Həm də İbrahim Tahir Qarabaği təkcə tənqid etmir, mövcud durumun təsvirinə yönəlmir, öz şeirləri ilə cəmiyyətə aydın inkişaf yollarını göstərirdi. Məsələn, şeirlərinin birində o, xalqa azadlıq, hürriyyət arzulayır. Qanunun aliliyinin, cəmiyyətdə haqq-ədalətin təmin olunmasını vacib sayır. Tərəqqi etmiş xalqların, cəmiyyətlərin bu sahədə qazandıqları təcrübəni ölkəyə gətirmək üçün gedib onların təcrübəsini əxz etməyi zəruri bilirdi. Şair digər millətlərin tərəqqi tapmasına həsədlə baxaraq onlardan nümunə götürməyi öz xalqına tövsiyə edirdi.

İbrahim Tahir Qarabaği dünyaya, insana, cəmiyyətə açıq bəsirət gözü ilə baxır. O, bütün ictimai bəlaların kökünü insanların cəhalətdə yaşamasında, irfana, elmə, mədəniyyətə nifrətlə yanaşmasında, qəflət yuxusuna qapılıb qalmasında görür. Yalnız öz mənfəətini düşünən, başqalarının fəlakətinə zərrə qədər də acımayan cılız xislətli insanlara üz tutaraq yazır:

*Din qardaşını bisərü saman görən oğlan,*
*Evdə bürünüb yatması yorğanə nədəndir?*
*Millət sözü, ehsan adı ortaya gələndə,*
*Kəc tutması ağzını hərə bir yanə nədəndir?*

Zahirdə millət adından danışan, özünü millətsevər kimi qələmə vermək istəyən insanları da şair satira atəşinə tutur. Onları heç olmasa, müsəlman adətlərinə riayət edərək möhtaclara kömək göstərməyə çağırır, bunun savab iş olduğunu göstərirdi.

## Qəzəl ədəbiyyatının ustadı

Üslub etibarilə romantiklərə, daha çox romantizmin maarifçilik qanadına yaxınlaşan İbrahim Tahir Qarabağinin əsərlərinin böyük bir qismini qəzəllər təşkil edir. Klassik irsimizin tədqiqatçılarından olan və öz əsərlərində İbrahim Tahir Qarabağinin də şeirlərinə diqqət yönəldən filologiya elmləri doktoru İslam Qəribli qəzəllərinə istinadən onun fars dilinə, Şərq tarixinə, ilahiyyat elmlərinə, klassik şeir ənənələrinə, əruz vəzninin qayda-qanunlarına dərindən bələd olduğunu göstərir. İbrahim Tahiri qeydsiz-şərtsiz M.Füzuli ədəbi məktəbinin istedadlı nümayəndələrindən biri hesab edir. Yeri gəlmişkən, özü də Füzuliyə böyük məhəbbət bəsləyən, ona həm xüsusi şeir həsr edən, həm də bir sıra qəzəllərini təxmis edən şairin yazdıqlarının əksəriyyəti məhəbbət mövzusundadır:

*İlahi, eylə bizi eşqə mübtəla demədik,*
*Eşqi eylə bizə dərdi-bidəva demədik.*
*Dedik həyalını bizlərlə eylə həmsöhbət,*
*Həyasızı bizə et yarü aşina demədik.*

*Vəfa mətaını umduq pəriliqalardan,*
*O bivəfalər etsin bizə cəfa demədik.*
*Həmişə bəzmi-məhəbbətdə biz səfa sürək,*
*O bəzm bizlər üçün verməsin səfa demədik.*

Tədqiqatçıların fikrincə, şairin məhəbbət mövzusunda yaratdığı qəzəlləri həm dil-üslub, həm də məzmun və sənətkarlıq cəhətdən klassik poeziyanın qəliblərinə yüksək səviyyədə cavab verir. Qəzəllərinin parlaq bədii xüsusiyyətləri ilə İbrahim Tahir Qarabaği Azərbaycanın zəngin ənənələrə malik qəzəl ədəbiyyatının ustadlarından biri sayılır.

## Yanan əlyazmalar

Əfsuslar olsun ki, şairin əsərlərinin bir qismi itib-batıb. Bir qismini isə məlumatlara görə, repressiya illərində təzyiqlərdən qorunmaq üçün özü yandırıb. Çünki repressiya dalğası İbrahim Tahir Qarabağinin də ailəsindən yan keçməmişdir. Şairin böyük oğlu Cəmil Berlində təhsilini bitirib, 1926-cı ildə Vətənə qayıdaraq burada çalışmağa başlamışdı. Kiçik oğlu Əli Musayev sonralar Azərbaycanın görkəmli rejissorlarından olmuş, çəkdiyi qısametrajlı sənədli filmlərlə tanınmışdı.

Ortancıl oğlu Əzizin isə taleyi çox faciəli olmuşdu. 1929-cu ildə G.V.Plexanov adına Xalq Təsərrüfatı İnstitutunun Mühəndis-iqtisad fakültəsini bitirən Əziz "Azneftzavodlar" trestinin rəis müavini vəzifəsinə qədər yüksəlmiş, amma sonra günahsız yerə tutularaq 1941-ci ilin 28 iyulunda güllələnmişdi. Deyilənə görə, şair də əlyazmalarının bir qismini oğlu tutulan dövrdə sobada yandırmışdır.

Maraqlı burasındadır ki, 23 il sovet cəmiyyətində yaşamasına rəğmən İbrahim Tahir Qarabağinin bu cəmiyyəti tərənnüm edən bircə misrasına da rast gəlmək mümkün deyil. Şair şeirlərinin hər hansı birində sovet cəmiyyətinə işarə edəcək bircə kəlmə belə işlətmir. Onun sağlığında Yazıçılar İttifaqına üzv ola bilməməsinin, heç bir kitabının nəşr olunmamasının, uzun illər ərzində unudulmasının əsas səbəbi də, görünür elə budur.

Amma xəzinəni tapmaq heç vaxt gec deyil. Əsas odur ki, onu üzə çıxaran, dəyər verənlər olsun. Üzərində İbrahim Tahir Qarabaği imzası olan düşüncə xəzinəsi də bu gün öz tədqiqatçılarının yolunu gözləyir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

Akademik Fuad Əliyev - 70

# Görkəmli alim, xeyirxah insan

Tale elə gətirib ki, 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinə daxil olarkən Gəncədən gəlmiş və bizimlə bir qrupda oxuyan Fuad Yusif oğlu Əliyev ilə tanış olmuş və o vaxtdan bir yerdə müxtəlif elmi tədqiqat institutlarında fəaliyyət göstərir, elmi nailiyyətlərimizi birgə bölüşürük.

Dostları, tanışları və ümumən, tanıyanların hər biri yaxşı bilir ki, Fuad müəllimə arxa çevirmək və güvənmək olar. O, hər bir çətin anda kömək əlini uzatmağa hazır bir insandır. Heç kimə və heç nəyə fərq qoymadan insanlara yardımçı olmağı, onların xeyir-şərinə yaramağı özünə borc bilir və yəqin bu da onun görüb-götürdüyü tərbiyədən, əsil-nəcabətindən irəli gəlir.

Akademik Fuad Əliyev böyük və görkəmli alimlər ailəsinin on övladının sonbeşiyi olmaqla özünün ata-anasından, müəllimlərindən, böyük bacı-qardaşlarından yaşam tərzini, insanlıq dəyərlərini öyrənmişdir.

Onun üç qardaşı elmlər doktoru, üç bacısı fəlsəfə doktoru olmaqla bu nəslin qədim adət-ənənələrini özlərində yaşatmaqla, elmi axtarışlarını və yaradıcılıqlarını davam etdirir və xalqının inkişafı üçün gördüyü hər bir elmi yeniliklərə sevinirlər.

Universiteti müvəffəqiyyətlə başa vurub, sovet ordusu sıralarında bölmə komandiri kimi xidmət etdikdən sonra Fuad Əliyev 1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının Aşqarlar Kimyası İnstitutunda əmək fəaliyyətinə başlamış, 1976-cı ildə qiyabi aspiranturaya daxil olmuş, 1981-ci ildə uğurla namizədlik dissertasiyasını müdafiə etmişdir.

Müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Liderimiz Heydər Əliyev ötən əsrin 70-ci illərində xalqı üçün ən vacib və dəyərli olan elmə, təhsilə xüsusi diqqət ayırmış, xarici ölkələrdə yeni ixtisaslar qazanmaq üçün gəncləri oxumağa göndərmişdir. Respublikamızda elmi tədqiqat institutlarının yaradılmasına başlanılmışdır. Bunun nəticəsidir ki, 1981-ci ildə respublikamızın qərb bölgəsində Nazirlər Kabineti tərəfindən Kirovabad Elm Mərkəzinin yaradılması haqqında qərar qəbul edilmişdir.

O dövrdə Azərbaycan Elmlər Akademiyasınını Rəyasət Heyəti Fuad Əliyevin təşkilatçılıq bacarığını, elmi fəaliyyətini nəzərə alaraq, onu Gəncə şəhərinə Elmi Mərkəzin yaradılması məqsədilə ezam etmişdir.

Alimlər çox gözəl bilirlər ki, elmi tədqiqatlar aparmaq nə qədər çətin və şərəfli olsa da, elmi təşkilatçılıq, yeni laboratoriyaların yaradılması və onların institut səviyyəsinə çatdırılması qat-qat çətindir.

Yaradılan elmi laboratoriyalarda aidiyyətli kadrların axtarılması və onların regionlarda olan problemlərin elmi həllinə yönəldilməsi çox çətin və ağır bir prosesdir.

Az bir vaxt ərzində öz müalicəvi əhəmiyyətinə görə dünyada yeganə olan "Naftalan nefti" laboratoriyası, uzun illər şəhərdə fəaliyyət göstərən Alüminium Oksidi Zavodunun ekoloji problemlərin həllini və iqtisadi səmərə əldə etmək məqsədilə, "Elementar kükürdün alınması", "Alunitin səmərəli emalı" laboratoriyaları fəaliyyətə başlamış və regionun təbii sərvətlərinin səmərəli istifadəsinə çalışmışdır.

Respublikamızın qərb bölgəsi özünün qədim tarixi, görkəmli mütəfəkkirləri və klassikləri, milli-mənəvi dəyərləri, folkloru ilə daim seçilmiş və xalqımızın dünyada tanınmasında mühüm rol oynamışdır. Bu, görkəmli mütəfəkkirlərin həyat fəaliyyətini və yaradıcılığını tədqiq etmək, Gəncənin qədim tarixini araşdırmaq məqsədilə 1982-ci ildə Kirovabad Elm Mərkəzinin nəzdində "İctimai elmlər" şöbəsinin yaradılmasına nail olunmuşdur.

Bu dövrdə Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Gəncənin qədim tarixinin tədqiqinə, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh və digər görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığının öyrənilməsinə başlanılmışdır.

XX əsrin sonlarında elmi tədqiqatların informasiya texnologiyaları əsasında fəaliyyət göstərməsi, şəhərdə Büllur Elektronika Zavodunun fəaliyyəti yeni kadr hazırlığını zəruri edirdi ki, bu məqsədlə də Elm Mərkəzində 1983-cü ildə "Avtomatik idarəetmə sistemləri" şöbəsi yaradıldı.

1985-ci ildə akademik Fuad Əliyevin təşəbbüsü və rəhbərliyi ilə "Xalqlar Dostluğu Muzeyi", 1995-ci ildə Qərb bölgəsinin zəngin bitki örtüyü nəzərə alınaraq "Təbii boyaqlar" və "Farmakologiya", 2003-cü ildə "Biotexnologiya və təbii sərvətlər", 2005-ci ildə onun rəhbərliyi ilə "Davamlı inkişaf və ekoloji monitorinq" laboratoriyaları fəaliyyətə başlamışdır.



Dünya poeziyasının sönməz ulduzu olan Nizami Gəncəvinin vətənində "Nizami Gəncəvi Mərkəzi", Qərb bölgəsinin arxeoloji və etnoqrafik materiallarla zəngin olması nəzərə alınaraq "Arxeologiya və etnoqrafiya" şöbəsinin yaradılmasına AMEA Rəyasət Heyəti qərar vermişdir.

1995-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Gəncə şəhərində keçirilən növbədənkənar iclasında qərb bölgəsində kadr hazırlığı və elmi tədqiqatların koordinasiyası məqsədilə "Xəbərlər" məcmuəsi jurnalının nəşrinə qərar verilmiş və akademik Fuad Əliyev "Xəbərlər" məcmuəsinin baş redaktoru seçilmişdir.

"Regionların sosial-iqtisadi İnkişafı Dövlət Proqramı"na uyğun olaraq respublikanın qərb bölgəsinin də dinamik inkişafı naminə, ixtisaslı kadrların hazırlanması tələbatı qarşıda duran ən mühüm vəzifələrdən biri olmuşdur. Uzun illər ərzində Gəncə Elm Mərkəzində aparılan tədqiqatlar və elmi potensialın inkişafı, elmi kadrların formalaşması şəhərdə elmi-texniki tərəqqi ilə yanaşı, yeni-yeni tələbləri qarşıya qoymuşdur.

Ölkə prezidenti cənab İlham Əliyevin neft kapitalının əqli mülkiyyətə çevrilməsi haqqında verdiyi qərarlar bu sahənin daha da inkişaf etməsinə səbəb olmuşdur. Bu məqsədlə 2012-ci ilin dekabr ayında cənab İlham Əliyevin sərəncamı ilə Gəncə Elm Mərkəzinin əsasında Gəncə Bölməsi və onu tərkibində 7 elmi tədqiqat institutları yaradılmışdır.

Bir neçə kəlmə də akademik Fuad Əliyevin elmi fəaliyyəti və nailiyyətləri haqqında fikirlərimi bölüşmək istəyirəm. Azərbaycan Dövlət Universitetində aldığı yüksək təhsilin nəticəsidir ki, o, 1981-ci ildə elmin ən çətin sahələrindən biri olan kimya, neft kimyası sahəsində müvəffəqiyyətlə elmlər namizədi, 1991-ci ildə isə elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Fuad Əliyev elmdə əldə etdiyi nailiyyətlərə və elmi-təşkilatçılıq fəaliyyətinə görə 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir və hal-hazırda Rəyasət Heyətinin üzvüdür.

Bu illər ərzində akademik Fuad Əliyevin rəhbərliyi ilə 200-dən artıq yerli və xarici nəşrlərdə elmi məqalələr, 60-dan çox kitab və monoqrafiyalar çap edilmiş, onun apardığı tədqiqatlar nəticəsində 17 elmi ixtira əldə edilmişdir.

Akademik Fuad Əliyevin rəhbərliyi ilə 7 nəfər kimya üzrə fəlsəfə doktoru, 3 nəfər elmlər doktoru hazırlanmışdır.

Akademik Fuad Əliyev elmi və elmi-təşkilati fəaliyyəti ilə yanaşı, şəhərin ictimai-siyasi həyatında da fəal iştirak etmişdir.

O, 1981-1991-ci illərdə Gəncə Şəhər Xalq Deputatları Sovetinin deputatı və uzun illər "Ekologiya və təbii sərvətlər" daimi Komissiyasının sədri, Gəncə (Kirovabad) şəhər Partiya Komitəsinin Təftiş komissiyası sədrinin müavini, Nizami rayon Partiya Komitəsinin büro üzvü olmuşdur. Fuad Əliyev 1991-1995-ci illərdə Gəncə şəhər Soveti Rəyasət Heyətinin üzvü və komissiyanın sədri, 1996-cı ildən bu günə kimi şəhər icra hakimiyyəti başçısı yanında daimi komissiyanın üzvü kimi ictimai vəzifələrdə uğurla fəaliyyət göstərir.

Fuad Əliyev 1996-cı ildən Yeni Azərbaycan Partiyası Gəncə şəhər Təşkilatının sədr müavini və Gəncə şəhər Ziyalılar Cəmiyyətinin sədri vəzifəsində çalışır.

Akademik Fuad Əliyev 2000-ci ildə Gəncə şəhər İcra Hakimiyyətinin "fəxri fərmanı", 2000 və 2005-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Vətənpərvər alim, görkəmli elm təşkilatçısı Fuad Əliyev 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Tərəqqi" medalı, 2006-cı ildə Prezidentin digər fərmanı ilə Əməkdar elm xadimi, 2017-ci ildə "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Fuad müəllimə elmi və elmi-təşkilati işlərində uğurlar diləyir, möhkəm cansağlığı arzulayırıq.

***Bəxtiyar MƏMMƏDOV,***
***Azərbaycan Milli Elmlər Akademiyası Polimer Materialları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Bakı Ali Neft Məktəbinin 11 tələbəsi xaricdə ixtisasartırma kurslarında iştirak edəcək

Bakı Ali Neft Məktəbinin (BANM) 11 tələbəsi Norveç, Fransa və İtaliyada 2 ay ərzində ixtisasartırma kurslarında iştirak edəcək.



Onlar Heydər Əliyev Fondu və İtaliyanın neft və qaz şirkəti - "Technip FMC" arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilən "Neft, qaz və neft-kimya sahəsində təhsil alan tələbələr üçün texnoloji biliklərin ötürülməsi üzrə magistr proqramı" layihəsinin qalibləridirlər.

Layihə çərçivəsində qalib seçilən 11 nəfərdən 6-sı - Cavid Məmmədli, Fidan Quliyeva, Cavid Məcidov, Nigar Cahangirova, Faiq Hacıbalayev, Arzu Abdullayeva kimya mühəndisliyi ixtisasının V kurs tələbələri, qalan 5 nəfər isə - Əli Nuraliyev, Aytac Xodayeva, Mirzəxan Əliyev, Xalidə Əhmədzadə, Elgün Yusifov neft-qaz mühəndisliyi ixtisasının V kurs tələbələridirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov xaricdə ixtisasartırma kurslarında iştirak edəcək tələbələr və onların valideynləri ilə görüşüb. Tələbələri təbrik edən rektor bildirib ki, gərgin və rəqabətli əmək bazarında peşəkar mütəxəssis kimi yetişmək üçün diplom yetərli deyil. O qeyd edib ki, ixtisasla bağlı biliklərlə yanaşı, praktiki bacarıqlar, xarici dil bilgiləri, yaradıcı yanaşma, sosial bacarıqlar, idarəetmə bacarıqları, məsuliyyətli yanaşma, nizam-intizam, qlobal trendləri izləmək, yenilikləri tətbiq etmək və onlara adaptasiya olmaq da çox önəmlidir. Rektor onu da əlavə edib ki, tələbələrin şəxsi inkişafında xüsusi izlər qoyacaq bu kurs onların əcnəbi həmkarları ilə yeni əlaqələr qurması baxımından da perspektivlidir.

E.Qasımov ixtisasartırma kurslarında iştirak edəcək tələbələrə təcrübə keçəcəkləri ölkələrdə ali məktəbi, eləcə də Azərbaycanı layiqincə təmsil etməyi tövsiyə edib.

Görüşdə çıxış edən tələbələr və onların valideynləri göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə ediblər.

***B.MİRZƏYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Abdinli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

***AZƏRTAC***

# Azərbaycanla Ukrayna neft-qaz sahəsində əməkdaşlığa dair sənəd imzalayıb

Yanvarın 30-da Kiyevdə enerji sahəsində əməkdaşlığa dair Azərbaycan-Ukrayna İşçi Qrupunun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan tərəfindən Energetika naziri Pərviz Şahbazov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Energetika nazirinin müavini Elnur Soltanov, SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov iştirak ediblər.



Qonaqları salamlayan Ukraynanın Energetika və Ətraf Mühitin qorunması naziri Aleksey Orjel bildirib ki, bu gün Azərbaycan və Ukrayna arasında digər sahələrdə olduğu kimi, energetika sahəsində də əməkdaşlıq əlaqələri inkişaf etməkdədir. Odessa şəhərində neft-qaz sahəsində müəssisələr var ki, özəlləşməyə çıxarılıb. Ukrayna tərəfi Azərbaycan şirkətlərinin bu sahəyə investisiya qoyuluşunda maraqlıdır. Nazir deyib ki, Azərbaycan neft-qaz məhsullarını Ukrayna vasitəsilə xarici bazarlara çıxarda bilər. O cümlədən Belarusa neft daşımalarının həyata keçirilməsi mümkündür.

A.Orjel bildirib ki, Ukrayna hazırda Avropa ölkələri ilə neft və qaz məhsullarının daşınması üçün sıx əməkdaşlıq etməyə başlayıb. Ukrayna Azərbaycan məhsullarını bu bazarlara çıxarmaqda yardımçı ola bilər. Nazir həmçinin Ukraynanın "Cənub qaz dəhlizi" layihəsində iştirakında maraqlı olduğunu vurğulayıb.

Energetika naziri P.Şahbazov deyib ki, energetika sahəsində Ukrayna tərəfinin irəli sürdüyü təkliflər araşdırılır. Azərbaycanın neft məhsullarının Ukrayna vasitəsilə daşınması məsələsi üzərində də məsləhətləşmələr aparılır: "Hesab edirəm ki, iclasda səsləndirilən və irəli sürülən təkliflər ekspertlər tərəfindən araşdırıldıqdan sonra hər hansı qərar veriləcək. Bu gün SOCAR Ukraynaya kifayət qədər investisiya yatırır. Ukraynada SOCAR brendi ilə 60 yanacaqdoldurma məntəqəsi və 4 neft bazası fəaliyyət göstərir. Düşünürəm ki, SOCAR bundan sonra da Ukraynada fəaliyyətini daha da genişləndirəcək".

SOCAR-ın prezidenti R.Abdullayev bildirib ki, SOCAR Ukraynada fəaliyyətini genişləndirməkdə maraqlıdır: "Düşünürəm ki, bu səfərin və görüşlərin müsbət nəticəsi olacaq, iki ölkə arasında energetika sahəsində əməkdaşlıq daha da inkişaf etdiriləcək".

Müzakirələrdən sonra Azərbaycan və Ukrayna arasında neft-qaz sahəsində əməkdaşlığa dair sənəd imzalanıb. Sənəddə Azərbaycanın neft məhsullarının Ukrayna vasitəsilə daşınması məsələsi də yer alıb.

# Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının iclası çərçivəsində müzakirələr aparılıb

Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının iclası çərçivəsində yanvarın 30-da Kiyev şəhərində "Ukrayna-Azərbaycan əməkdaşlığı" adlı dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın İnfrastruktur naziri, komissiyanın həmsədri Vladislav Krikli Azərbaycan ilə Ukrayna arasında siyasi və iqtisadi sahələrdə dinamik əməkdaşlığın davam etdiyini söyləyib. O bildirib ki, hər iki ölkə enerji, sənaye, kənd təsərrüfatı sahələrində birgə layihələrin reallaşmasında maraqlıdır. "Azərbaycan nümayəndə heyəti Kiyev şəhərindən öncə Odessada olub və orada neft emalı zavoduna baxış keçirilib. Düşünürəm ki, Azərbaycan neft və qaz məhsullarının Ukrayna üzərindən daşınması üçün alternativ yollardan istifadə edə bilər. Azərbaycanın Avrasiya nəqliyyat dəhlizində iştirakında maraqlıyıq", - deyə nazir əlavə edib.

Azərbaycanda yol infrastrukturunun Avropa standartlarına tam cavab verdiyini deyən A.Krikli bildirib ki, Prezident Vladimir Zelenskinin Azərbaycana rəsmi səfəri zamanı bunun əyani şahidi olublar. "Hesab edirəm ki, Azərbaycan şirkətləri yol infrastrukturunun qurulmasında böyük təcrübəyə malikdir. Ona görə də Azərbaycan şirkətlərini Ukrayna yollarının yenidən qurulmasında iştirak etməyə çağırıram", - deyə A.Krikli vurğulayıb.

Ukraynaya böyük heyətlə gəldiklərini deyən Azərbaycanın Energetika naziri, komissiyanın həmsədri Pərviz Şahbazov bildirib ki, bu, Azərbaycan və Ukrayna arasında iqtisadi əməkdaşlığın inkişafına böyük marağın göstəricisidir.

"Azərbaycan və Ukrayna arasında əməkdaşlıq qarşılıqlı hörmət və dostluq şəraitində davam edir. Bu iqtisadi əməkdaşlıq təkcə dövlət strukturları ilə deyil, özəl şirkətlərin iştirakı ilə də inkişaf etməlidir. Azərbaycanda gözəl investisiya mühiti mövcuddur, son 15 ildə ölkə iqtisadiyyatı 3 dəfə artıb. Düşünürəm ki, Ukrayna şirkətləri üçün Azərbaycan cəlbedici ölkədir", - deyə nazir əlavə edib.

İki ölkə arasında ticarət dövriyyəsinin mövcud potensialı əks etdirmədiyini vurğulayan P.Şahbazov deyib ki, qarşılıqlı investisiya yatırımları artırılmalıdır. "SOCAR Ukraynaya böyük investisiya yatırımı qoyur. Bundan sonra da SOCAR fəaliyyətini genişləndirəcək. Odessada bir sıra müəssisələrlə tanış olduq, düşünürəm ki, ekspertlər qrupunun nəqliyyat, energetika, kənd təsərrüfatı sahələrində birgə layihələr üzərində işləməsi effektiv nəticəsini verəcək", - deyə nazir qeyd edib.

Daha sonra tədbirdə Ukrayna Ticarət-Sənaye Palatasının prezidenti Gennadi Çijikov, AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski mövzu ətrafında çıxış ediblər.

Xatırladaq ki, Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının sonuncu iclası 2016-cı ilin iyulunda Bakıda keçirilib.


## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti

### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

**LOT 1. Nərəkimilər dəstəsinə daxil olan balıqlar üçün yem məhsullarının satın alınması.**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər. Malgöndərənlərlə vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi: Aqil Ağayev, Tel.: (012) 567 01 60.

**İştirak haqqı: 100 AZN**
**Bank rekvizitləri:**
**Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan təşkilat: Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti**
**VÖEN: 1500139001**
**büdcə təsnifatının kodu: 142340**
**büdcə səviyyəsinin kodu: 7, Fond 7**
**hesab №: AZ32CTRE00000000000008297701.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **20.02.2020 saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.02.2020 saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.03.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti

### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

**LOT 1. Qızılbalıqkimilər dəstəsinə daxil olan balıqlar üçün yem məhsullarının satın alınması.**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Malgöndərənlərlə vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi: Aqil Ağayev, Tel.: (012) 567 01 60.

**İştirak haqqı: 100 AZN**
**Bank rekvizitləri:**
**Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan təşkilat: Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti**
**VÖEN: 1500139001**
**büdcə təsnifatının kodu: 142340**
**büdcə səviyyəsinin kodu: 7, Fond 7**
**hesab №: AZ32CTRE00000000000008297701.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **21.02.2020 saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02.03.2020 saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **03.03.2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaiyan Republic**
**Agricultural Competitiveness Improvement Proyect**
**Loan No.8286-AZ**

**Assignment Title: Training program for improving the effectiveness of the vaccination campaign and safeguard aspects of vaccination**

**Reference No. AZ-AACD-156628-CS-CQS**

The Government of Azerbaiyan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Proyect, and intends to apply part of the proceeds for consulting services.

The proyect consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*

*(ii) Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*

*(iii) Component C - Financial services to agribusiness.*

*(iv) Component D - Proyect Management.*

Under the Component A3 - Animal Health and Veterinary Services - the proyect supports the implementation of a national program against Brucellosis based on mass vaccination and modern surveillance techniques. The control program against Brucellosis is a composite activity comprising several sequenced actions deployed over a four-year period for small ruminants and a three-year period for cattle.

The vaccination campaign is implemented by specially trained and equipped staff of the Rayon Veterinary Units and students of the Veterinary Faculty of State Agrarian University.

The next campaign round scheduled for March 2020. The action plan has been prepared to strengthen the capacity on the ground to implement the vaccination. The action plan envisages, amongst other measures, recruitment and training of some 2,000 auxiliary personnel (operators) to support the field veterinarians in the vaccination campaign.

**The general obyective of the assignment**

The obyectives of the assignment are to: (i) design the training program for Field Veterinary Units and auxiliary (operators) to be recruited to support the FVUs in implementation of vaccination; and (ii) deliver the training program. The obyective of the practical and applied training program is to enhance the capacity to implement the vaccination campaign more effectively. The training program will cover also the environmental safeguard aspects of the vaccination, including occupational and health safety. The Consultant (Training Provider) will design practical and reference materials related to subyect assignment. The training program would enhance the capacity of the veterinary service to deliver the vaccination in an expanded scope.

**Scope of services and work methodology**

The training program will have the following three components:

*Component 1: Training of 106 Master Trainers.*
*Component 2: Training of 2,000 veterinary assistants/operators*
*Component 2: Training of 1,624 regional veterinarians*

**Location of assignment**

The Trainings shall be conducted in bellow mentioned 53 rayon centers:

Baku, Shamakh, Siyazan, Salyan, Gusar, Guba, Gobustan, Khizi, Khachmaz, Shabran, Absheron

Aghstafa, Dashkesan, Gadabay, Goranboy, Goygol, Gazakh, Samukh, Shamkir, Tovuz, Ganya

Astara, Bilasuvar, Yalilabad, Hayigabul, Lerik, Lankaran,Neftchala, Saatli, Sabirabad, Yardimli

Aghdash, Aghsu, Balaken, Goychay, Ismayilli, Gakh, Gabala, Oguz, Sheki, Zagatala

Aghdam, Agyabadi, Beylagan, Barda, Fuzuli, Imishli, Kurdamir, Tartar, Uyar, Yevlakh, Zardab

**Required input and duration of the assignment**

The assignment is considered to be implemented within 50 calendar days. The task is expected to be implemented in late February-early April 2020.

**The shortlisting criteria are:**

The assignment will be carried out by the Consulting Company with the relevant experience specific to the assignment, and with an established track record in implementing training activities. The Consultant will have to have at least 5 years of similar experience in providing training in relevant field in rural areas of Azerbaiyan, and experienced in the field of veterinary, animal health, and environmental safeguards, etc.;

The company should propose trainers with the following minimum qualification:

**<u>For Component 1:</u>**

5 Trainers with the following qualifications:

1) Relevant higher education in veterinary or relevant fields;
2) Total 10 years of education, training and teaching techniques and/or training of trainers methodology.

**<u>For Component 2:</u>**

106 Trainers with the following qualifications:
1) Relevant higher education in veterinary science
2) At least 5 years' experience of veterinary practice

**<u>For Component 3:</u>**

10 Trainers with the following qualifications:

1) Relevant higher education in ecology/veterinary/or relevant fields
2) Trainings and provision of academic knowledge, at least 5 years of experience in education
3) Experience in teaching of occupational and health safety and environmental protection

The Agricultural Competitiveness Improvement Proyect now invites eligible Consulting Companies to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, Yanuary 2011 edition, revised Yuly 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Selection Based on the Consultants' Qualifications (CQS)method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by February 06, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaiyan/Agricultural Competitiveness Improvement Proyect**
**Attn: Mr. Anar Azimov**
**Proyect Director**
**25E, Nobel avenue, Baku White City Business Center, AZ1025, Baku, Azerbaiyan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail: a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.


# Azərbaycan və Ukrayna arasında siyasi məsləhətləşmələr aparılıb

Azərbaycan və Ukrayna Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Xarici İşlər nazirinin müavini Vasili Bodnar və Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov arasında keçirilən görüşdə Prezident Vladimir Zelenskinin Bakıya rəsmi səfəri zamanı əldə olunan razılaşmaların icrası məsələləri müzakirə edilib.

X.Xələfov iki ölkənin Xarici İşlər nazirlikləri arasında mütəmadi olaraq siyasi məsləhətləşmələr aparılmasının əlaqələrin daha da inkişafı baxımından faydalı olduğunu diqqətə çatdırıb. Azərbaycan və Ukraynanın strateji tərəfdaş olduğunu bildirən X.Xələfov ölkəmizin Ukrayna ilə bütün sahələrdə əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsində maraqlı olduğunu xüsusilə qeyd edib.

V.Bodnar Azərbaycanla strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinin, eləcə də regional təhlükəsizliyin təmin edilməsinin Ukrayna üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Tərəflər Azərbaycan və Ukrayna dövlət başçıları səviyyəsində aparılan siyasi dialoqun əlaqələrin dinamik inkişafına güclü təkan verdiyini vurğulayıblar.


## Balakən Suvarma Sistemləri İdarəsi

### *açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir.**

LOT 1 Əsaslı və cari təmir işləri üçün tikinti materiallarının satın alınması.

LOT 2 Mexanizmlər və nəqliyyat vasitələrinin cari təmiri üçün ehtiyat hissələrinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, elektron Portal vasitəsilə müraciət etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maddi-texniki imkanları, iddiaçının faktiki yerləşdiyi ünvan, mal-materialların çatdırılması müddəti, maliyyə vəziyyəti. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Məlumat mübadiləsi yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır. Tender təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Malgöndərənlərin (podratçıların) səlahiyyətli nümayəndələri Portala daxil olmaqla iştirak edə bilərlər. Tender zərflərinin açılışı, tenderin qiymətləndirilməsi və bütün prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. Qanun və digər aidiyyəti normativ hüquqi aktlar ilə Portalın qanunvericilik hissəsində (https:etender.gov.azlaws) tanış olmaq olar (əlaqələndirici şəxs: E.Bodurov, tel:. 02429-5-54-25, 050 861-70-40).

**İştirak haqqı: hər LOT üzrə 50 manat**

**Təşkilat Balakən SSİ (VÖEN: 3800057561)**
**Hesab: AZ83AIIB32051019446900201169**
**VÖEN: 3800063541**
**Bank: Kapital bank Balakən filialı**
**Kod: 200695**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T BİK: AİİBAZ 2x**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi miqdarında bank təminatı (zərfin açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbarı ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış (07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti. Son maliyyə dövrünə olan məlumatı əks etdirməklə;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (07.01.2020-ci il tarixdən sonra alınmaqla);*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması;*
- *digər sənədlər: müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyətinin dayandırılmaması barədə, maddi texniki bazası, işçi sayı, əsas vəsaitləri barədə geniş arayış.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 fevral 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə 27 fevral 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 fevral 2020-ci il saat 15:00-da Portal vasitəsilə həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Koronavirus dünya gündəmindədir

## Quş və donuz qripi, ebola kimi xəstəliklərdən heç də təhlükəli olmayan bu virusa yoluxmaya bilərik

Çindən yayılmağa başlayan koronavirus, deyəsən, insanları, haqlı olaraq qorxutmağa başlayıb. Dünya mediasının gündəmini zəbt edən bu mövzudan yayınmaq mümkün deyil. Amma əsas məsələ bu dəhşətli virusa yaxalanmamaqdır.



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Nazirlər Kabinetində keçirilən müşavirədə bununla bağlı qərar qəbul olunub. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi koronavirusla bağlı nəzarət tədbirlərini gücləndirib. Başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Çin Xalq Respublikasından Azərbaycana diri heyvan və heyvan mənşəli, dəniz məhsullarının idxalına, eləcə də zoomağazalar və zooparklar üçün vəhşi heyvanların gətirilməsinə müvəqqəti məhdudiyyət qoyulması qərara alınıb. Azərbaycanın sərhəd-keçid məntəqələri isə koronavirus epidemiyasına görə gücləndirilmiş iş rejiminə keçib.

Səhiyyə naziri Oqtay Şirəliyev respublikada koronavirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə əmr imzalayıb. Əmrdə respublikanın şəhər və rayonlarının səhiyyə, idarə və müəssisələrinin rəhbərlərinə koronavirus xəstəliyi barədə tibb işçilərinin təlimatlandırılması göstərişi verilib. Eləcə də həmin sənəddə kəskin respirator xəstəlik halları barədə məlumatın dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə ötürülməsi, şübhəli şəxslərdən götürülmüş nümunələrin Respublika Taun Əleyhinə Stansiyasına çatdırılması tapşırılır. Bunlardan başqa xəstəliyin simptomatik müalicəsi uçun dərman preparatları ehtiyatının yaradılması, tibb müəssisələrində dezinfeksiya tədbirlərinin həyata keçirilməsinin gücləndirilməsi və s. də əmrdə öz əksini tapıb.

Hazırda ölkədə epidemioloji durum ciddi nəzarət altındadır, bu virusa yoluxma və ya şübhəli hal aşkarlanmayıb.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, 2012-ci ilin aprel ayından etibarən ilk dəfə Yaxın Şərq ölkələrində respirator sindromlu koronavirus (MERS-CoV) aşkar edilmiş və onun törətdiyi xəstəliyin qeydiyyata alınmasına başlanmışdır. 2015-ci ilin may ayında xəstəliyin Cənubi Koreyada alovlanması baş vermiş və hazırda davam etməkdədir. Ümumilikdə bütün ölkələr üzrə 1,3 min nəfərdən artıq insan bu virusa yoluxub və onlardan 500-ə yaxını dünyasını dəyişib.

Bu gün ölkə vətəndaşlarını düşündürən əsas məsələ koronavirusun Azərbaycana hansı yolla gələ bilməsidir. Azərbaycanın baş infeksionisti Cəlal İsayev bununla bağlı fikirlərini açıqlayarkən deyib ki, Çindəki yeni virusun ölkədə qeydə alınma ehtimalı azdır: "Ancaq bu virus Çinə gedən, ya da oradan qayıdan vətəndaşlar vasitəsilə ölkəyə gələ bilər. Bunun qarşısını almaq üçün aidiyyəti qurumlar müvafiq işlər görür".

Həkim onu da vurğulayıb ki, hazırda infeksiyalarla bağlı müraciət edənlər arasında ağırlaşma halı qeydə alınmır: "Əgər ağırlaşmalar, yaxud yeni virusun olma şübhəsi yaranarsa, bunun üçün xüsusi ayrılmış palatalar var, vətəndaşların orada yerləşdirilməsi nəzərdə tutulub. Bu palatalar ağır xəstələr üçündür və hazırda boşdur. Əgər şübhə yaranarsa, "103" çağırış xidmətinə zəng edilməli, analiz üçün nümunə götürülməli və Təhlükəli Viruslarla Mübarizə Mərkəzinə göndərilməlidir".

"Çinlə yanaşı, digər regionlardan da Azərbaycana gələn bütün şəxslər müayinə edilir", - deyə Azərbaycanın baş epidemioloqu İbadulla Ağayev bununla virusla bağlı açıqlama verərkən bildirib ki, Səhiyyə Nazirliyi Çində aşkarlanan koronavirusla əlaqədar profilaktik tədbirlər hazırlayıb: "Əgər Azərbaycanda xəstəlik aşkar edilərsə, bununla mübarizə aparmaq üçün bütün dərman preparatlarımız var. İnsanlar özlərini qorumalı, xəstə halda iş yerinə və kütləvi yerlərə getməməli, maskadan istifadə etməlidirlər. Çinə gedən vətəndaşların səfərlərini təxirə salmaları tövsiyə olunur. Çindən gələn vətəndaşlarda koronavirus əlamətləri baş verdikdə xüsusi həkim nəzarətində olacaqlar".

Koronavirusun yayılması ilə əlaqədar bu gün bir çox ölkələr Çinlə əlaqələrini müvəqqəti olaraq dayandırıb.

Səhiyyə Nazirliyi Çin restoranlarına gedilməməsi haqqında əhaliyə xəbərdarlıq edib. Nazirliyin Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva media nümayəndələrinə açıqlamasında deyib ki, insanlar bir müddət Çin restoranlarına getməsinlər: "Ümumiyyətlə, Çin qidalarından istifadə etməsinlər. Koronavirus barədə geniş araşdırmalar aparılanadək bu restoranlara getmək məsləhət deyil. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təhlükənin olmaması barədə məlumat veriləndən sonra insanlar rahat şəkildə bu restoranların xidmətlərindən istifadə edə bilərlər".

Qeyd edək ki, Çin restoranlarında hazırlanan təamlar üçün lazım olan məhsullar məhz həmin ölkədən gətirilir. Belə olan halda əhalinin sağlamlığı üçün həmin restoranlara vəziyyət sakitləşənə qədər gedilməməsinin tövsiyə edilməsi ekspertlər tərəfindən müsbət qarşılanır.

Çin restoranlarında çalışanlar isə iddia edirlər ki, son günlər Çində yayılan və insanların ölümünə səbəb olan koronavirusla bağlı Azərbaycandakı restoranların sahibləri oradan məhsul gətirməyi dayandırıblar. Onlar məhsulları Avropadan və ya Bakının özündən aldıqlarını bildirirlər.

Son məlumatlara görə, Çində yeni koronavirusa yoluxanların sayı 7711 nəfərə çatıb və onlardan 170-i dünyasını dəyişib. Ümumdünya Səhiyyə Təşkilatı, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi koronavirusla bağlı əhaliyə tövsiyələr hazırlayıb. Bir sözlə, mümkün olan bütün işlər görülüb. Mütəxəssislərin sözlərinə görə, koronavirus quş və donuz qripi, ebola kimi xəstəliklərdən heç də təhlükəli deyil. Sadəcə, onlarla müqayisədə, hələlik yeni və anlaşılmazdır. Qorxu və təlaşı kənara qoyub bacardığımızı etməliyik. Əlbəttə, ehtiyatlı olsaq, koronavirus da bizdən ötüb keçəcək.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***


Təkrar

## "Azərişıq" ASC Şamaxı rayonu ərazisində 3x6,3 MVA gücündə yeni yarımstansiyanın tikintisi, 35 kV-luq giriş və 10 kV-luq çıxış kabel xətlərinin çəkilməsi işlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**
"Azərişıq" ASC Şamaxı rayonu ərazisində 3x6,3 MVA gücündə yeni yarımstansiyanın tikintisi, 35 kV-luq giriş və 10 kV-luq çıxış kabel xətlərinin çəkilməsi işlərinin satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93, daxili (22-83)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 fevral 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 fevral 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 fevral 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Ermənistanın Paşinyana olan inamı tükənib

## İşğalçı ölkədə siyasi gərginlik daha da artır

Ermənistanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə Paşinyan iqtidarına qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Ölkənin bütün sahələrdə, o cümlədən sosial sferada artan problemləri artıq baş nazir üçün ciddi çətinliklər yaradır. Görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlar atır. Ona qarşı çıxan qüvvələr indi baş naziri müxtəlif məsələlərdə sərt şəkildə ittiham edərək, ölkəni uçuruma doğru yuvarladığını bildirirlər.

Paşinyan isə hakimiyyətini möhkəmləndirmək üçün keçmiş iqtidar təmsilçilərini həbs etdirərək məqsədinə nail olmaq niyyətini açıq şəkildə göstərir. Bunun ən real təsdiqlərindən biri Ermənistanın keçmiş prezidenti Robert Koçaryandan sonra Serj Sarkisyanın da həbs təhlükəsi ilə üzləşməsidir. Belə ki, sabiq prezident haqqında cinayət işi məhkəməyə göndərilib.

Ermənistan baş prokurorluğunun mətbuat katibliyinin məlumatına görə, prokuror iddiamnaməni təsdiqləyib. Xatırladaq ki, Serj Sarkisyan bir milyon dollardan çox dövlət vəsaitinin oğurlanmasının təşkilində ittiham olunur. Onunla birlikdə sabiq kənd təsərrüfatı nazirinin müavini Samvel Qalstyan, nazirliyin bitkiçilik idarəsinin rəisi Gevorq Arutyunyan və "Fleş" şirkətinin sahibi Barseq Beqlaryana da ittiham irəli sürülüb. 2019-cu ilin dekabrında Sarkisyanın əmlakı üzərinə həbs qoyulub.

İstintaqın versiyasına görə, sui-istifadə kəndlilərə dizel yanacağının münasib qiymətlərlə satılması üzrə hökumət proqramı çərçivəsində baş verib. Cinayət işinin materiallarına əsasən, Sarkisyan tabeçiliyindəki şəxslərə dizel yanacağının tədarükçüsü qismində "Fleş" kampaniyasını seçməyi tapşırıb. Halbuki digər şirkət - "Masxur" kampaniyası daha ucuz qiymət təklif etmişdi. Müstəntiqlər hesab edirlər ki, sabiq prezident tamah məqsədilə sövdələşmədən özü üçün maksimum mənfəət götürmək niyyəti güdüb.

Paşinyan hakimiyyətinin əhaliyə verdiyi əsas vədlərdən biri sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması ilə bağlı idi. Amma son vəziyyətin təhlili göstərir ki, iqtidar nəinki yeni iş yerləri açır, əksinə, olanları da bağlayır. Bu da Ermənistanda kütləvi narazılıq yaradır, Paşinyana qarşı çıxanların sayının sürətlə artdığını göstərir. İşğalçı ölkədə vurğulanır ki, Nikol Paşinyanın hakimiyyətə olan hədsiz yanğısı onun əldə etdiyi bütün "uğurları"na artıq kölgə salmaqdadır.

"Armenianreport" saytı son günlər işğalçı ölkədə baş verən hadisələrə göz yummağı vacib və zəruri bir hal sayır. Əslində, bunun o qədər də asan olmadığını bildirən sayt, Ermənistanda hakimiyyət uğrunda mübarizə aparan siyasətçilərin günahı ilə cəmiyyətdəki gərginliyin təhlükəli həddə çatdığını gizlətmir.

Son günlərdə dünya mətbuatının əsas aparıcı mövzularından birinə çevrilmiş amerikalı basketbolçu Kobi Brayantın qəza nəticəsində ölməsinə diqqət çəkən sayt ABŞ-dan olan məşhur şəxslərin həyatı və ölümlərinin belə, kiçik Ermənistan siyasətçilərinin həyatı və mübahisələrindən daha çox dünya birliyinin diqqət mərkəzində olduğunu göstərir. Sayt yazır ki, Paşinyan əldə etdiyi "uğurlara" həyasızcasına nail olur: "Paşinyanın hakimiyyəti itirəcəyi təqdirdə belə, ölkədən qaça bilməsi inandırıcı görünmür. Dünənə qədər onun yaxın silahdaşı olmuş Vanetsyan da ölkədən qaçmayacaq. Əslində Paşinyanın hakimiyyətə olan sevgisinə rəğmən, Ermənistan bataqlığa yuvarlanıb. Bununla belə, Paşinyanla Vanetsyanı Robert Koçaryan və Serj Sarkisyandan fərqli olaraq birləşdirən bir çox əlaqələr mövcuddur. Amma indi ermənilər üçün sehrbazlıq dövrü arxada qalıb. Yəni onları Paşinyanın "sehrli çubuğu" ilə də ram etmək mümkün deyil. Məhz bu mənada, Paşinyanın hakimiyyətdən gedişinə, ölkədə nə təəssüflənən, nə də ağlayan olacaq. Artıq ona olan inam son həddə qədər tükənib".

"Past" qəzeti yazır ki, Paşinyan etdiyi hər canlı yayım, hər sosial şəbəkələrdəki statusu və hər mətbuat konfransı ilə reytinqini, cəmiyyətin ona olan inamını itirir. Qeyd olunur ki, bir vaxtlar müxalif deputat kimi çıxışları ilə xalq arasında az da olsa nüfuz qazanan Nikol Paşinyan Ermənistanda baş nazir olandan sonra qazandığı bu nüfuzu artıq xərcləyib qurtarmaq ərəfəsindədir. Təsadüfi bir adamın hakimiyyəti ələ keçirib əsassız iddialarla çıxış etməsi, təbii ki, "bəhrəsini" verməkdədir.

Əslində, bunu əksər erməni ekspertlər də faktlarla əsaslandırmağa çalışırlar. Məsələn, bir müddət əvvəl Paşinyan Ermənistanda xaricə xidmət edən siyasətçi agentlərin olduğunu bildirmişdi. Maraqlısı onun bu iddianı olduqca təhlükəli şəkildə ifadə etməsi idi. Yəni o, bu haqda danışarkən iddia kimi yox, sübuta yetirilmiş bir fakt kimi çıxış edirdi. Nəşr zaman keçdikcə "cinayətkarlar", "quldurlar" və buna bənzər ifadələrin Paşinyan tərəfindən səsləndirilməsinin artıq adi hal aldığını qeyd edib.

Bütün bu qeyd edilənlər aydın şəkildə sübut edir ki, Ermənistanda yaxın vaxtda vəziyyət daha da gərginləşəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Çin hökuməti koronavirusla mübarizəyə 3,9 milyard dollar ayırdı



Çinin dövlət maliyyə təşkilatları koronavirusun yayılması ilə mübarizə üçün 3,9 milyard dollar ayırmışdır. Bu barədə Maliyyə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, koronavirus epidemiyasının profilaktikası və nəzarəti işində bu məqsədlər üçün ümumilikdə 27,3 milyard yuan ayırmış bütün instansiyalardan olan maliyyə orqanları iştirak edir.

Son rəsmi məlumata görə, Çində 170 nəfər koronavirusdan dünyasını dəyişmişdir. Xəstəliyə yoluxanların sayı 7711 nəfərə çatmışdır.

Son bir gün ərzində 1737 yeni yoluxma halı qeydə alınmış, 38 nəfər vəfat etmişdir. 124 nəfər xəstəxanadan evə buraxılmışdır.

## Konqoda 30 dinc sakin öldürüldü



Konqo Demokratik Respublikasının şərqində yerləşən dörd yaşayış məntəqəsində "Demokratik qüvvələr alyansı" ekstremist qruplaşmasının silahlıları azı 30 dinc sakini öldürmüşlər. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, silahlılar Şimali Kivu əyalətinin Beni rayonunda hücum etmişlər. Bundan əvvəl həmin rayonda ekstremistlərin iki kəndə hücumu nəticəsində 15 dinc sakin həlak olmuşdur.

## Avropa Parlamenti Brexit sazişini təsdiqlədi



Avropa Parlamenti Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxması barədə sazişi təsdiqləmişdir. Müvafiq qərarı 521 parlamentar dəstəkləmiş, əleyhinə 49 nəfər səs vermiş, 13 deputat bitərəf qalmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Böyük Britaniyada Brexit məsələsi 2016-cı ilin iyununda qaldırılmışdı. O vaxt keçirilmiş referendumda iştirakçıların 51,9 faizi Aİ-dən çıxmağa səs vermişdir. Londonun Brüssellə danışıqları uzun müddət nəticəsiz qalmış və bu səbəbdən Tereza Mey Baş Nazir vəzifəsini tərk etmişdir. Onun yerini tutan Boris Conson növbədənkənar seçkilər keçirmiş və başçılıq etdiyi Mühafizəkarlar Partiyası inamlı qələbə qazanmışdır.

Ötən ay Britaniya parlamenti ikinci oxunuşda Aİ-dən çıxmaq planına səs vermişdir. Cari ayın 24-də Avropa İttifaqı Şurasının başçısı Şarl Mişel və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Brexit sazişini imzalamışlar.

## Bağdadda polislə toqquşmalar baş verdi

İraqın paytaxtı Bağdadın mərkəzində etiraz aksiyasının iştirakçıları ilə təhlükəsizlik qüvvələrinin əməkdaşları arasında toqquşmalar baş vermişdir. Bu barədə "Sky News Arabia" telekanalı xəbər verir.

Məlumata görə, toqquşmalarda azı 15 etirazçı xəsarət almışdır. Öz növbəsində "əl-Nədəs" telekanalı isə xəbər verir ki, nümayişçilər polis əməkdaşlarına qumbara atmışlar. Nəticədə iki polis yaralanmışdır.

Ötən ilin oktyabrından bəri ölkədə həyat şəraitinin pisləşməsinə, gənclər arasında işsizliyə və korrupsiyaya etiraz əlaməti olaraq kütləvi aksiyalar keçirilir. Nümayişlər praktiki olaraq hər yerdə toqquşmalarla, talanlarla və zorakılıqla müşayiət olunur. Bu müddətdə ölənlərin sayı 700 nəfərə çatmışdır. 25 min nəfərdən çox adam zərər çəkmişdir.

## Dünyanın ən qocaman qadını vəfat etdi

Tacikistanda dünyanın ən qocaman qadını vəfat etmişdir. Özünün dediyinə və pasport məlumatına əsasən, onun 127 yaşı var idi. Rekordçunun adı Fatimə Mirzokulovadır. Bu barədə "Daily Mail" qəzeti xəbər verir.

Mərhumun sənədinə əsasən, Mirzokulova 1893-cü il martın 13-də anadan olmuşdur. O, 8 övlad və 200-dən çox nəvə-nəticə qoyub getmişdir.

Yerli KİV-in xəbərinə görə, Fatimə Mirzokulova ömrü boyu kolxozda çalışmışdır. Təqaüdə çıxdıqdan sonra da pambıq yığımı ilə məşğul olmuşdur.

Dünyada ən qocaman qadın rəsmən fransalı Janna Kalman hesab olunur. O, 122 yaşında dünyasını dəyişmişdir. Hazırda sağ qalanlar arasında ən qocaman qadın 117 yaşlı yaponiyalı Kane Tanaka sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Natiq Məmmədliyə anası
**PAKİZƏ MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin kollektivi cəmiyyətin İdarə Heyətinin sədri Etibar Abbasova atası
**TƏHMƏZ ABBASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti üzvləri Əməkdar memar, Dövlət mükafatı laureatı Nazim Hacıbəyova həyat yoldaşı
**NAZİMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin kollektivi Gözəl İsgəndərovaya qardaşı
**TOFİQ İSGƏNDƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası
**TƏHMƏZ ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası
**TƏHMƏZ MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin rəhbərliyi və kollektivi "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Etibar Abbasova atası
**TƏHMƏZ ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6853
Sifariş 300
Qiyməti 40 qəpik